SÜBHAN ABASBƏYLİ

# ÜRƏYİMİN HARAYI

Bakı - 2023

*Redaktor: Sübhan Abasbəyli*

*Sübhan Abasbəyli,*
*"Ürəyimin harayı"*
*Bakı, «İmza» nəşrlər evi, 2023, 152 səh.*

**İSBN 978-9952-37-440-1**

**© Sübhan Abasbəyli, 2023**

Sübhan Abasbəyli (Əhədzadə Sübhan Kamran oğlu) 1954-cü ildə Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. ADPİ-nun tarix-ictimaiyyat fakültəsini, Moskva Marksizim-Leninizm İnstitutunun iki illik təbliğatçı-təşviqatçı şöbəsinin Bakı filialını bitirmişdir.Lerik,-Masallı rayonlarında müəllim, direktor müavini,məktəb Direktoru ,rayon qəzetində ictimai əsaslarla müxbir,

Rayon Partiya Komitəsi yanında zona üzrə təbliğatçı-təşviqatçı işləmişdir. (Sovetlər vaxtı,ictimai əsasla)

1995-ci ildən Tatarstan Respublikasının Kazan şəhərində yaşayır.2007-ci ildən Tatarstanda Azərbaycan -Milli Mədəni Muxtariyyatın Təftiş-Nəzarət Komissiyasının sədri,2012-ci ilin dekabrından 2017-ci ilin yanvarına qədər Tatarstan Reqional İctimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyatı idarə heyyətin sədri seçilmişdir.

S.Əhədzadə, Azərbaycan Diasporasına rəhbərlik etdiyi müddətdə Kazan şəhərində Azərbaycanın görkəmlu şəxsiyyətləri N.Nərimanovun(2013),Mirzə Kazım bəyin abidələri(barelyef) (2015) ucaldılmışdır.

Tarixi faciəmiz olan Xocalı Soyqrımı qeyri leqal şəraitdən leqal şəraitə keçirilməklə Rusiyada ilk dəfə Kazanda,-kinoteatr “MİR”də “Xoca”,”Xocalı faktlarla” sənədli kinoları yerlı ictimaiyyat qarşısında nümayiş etdirilmişdir. Xocalı faciəsinə aid minlərlə buklet şəhər ictimaiyyatına paylanılmışdır-2014-2017.(fakt).

İlk dəfə Kazanda, həmçinin Rusiyada, tariximizdən bəhs edən “Azərbaycan kino günləri” bir neçə il ard-arda

kino teatr "Mir"də ,yerli ictimaiyyat qarşısında nümayiş etdililmişdir.

Azərbaycan Diasporası 35 Diaspor təşkilatıarı içərisində ən yüksək pilləyə yüksəlmişdir(2016-fakt).

Şair-publisist S.Abasbəyli Azərbaycan Yazıçılar Birliyinin,Jurnalıstlər Birliyinin üzvüdür."Qızıl Qələm" Media mukafatı laureatıdır, "İlin Vətınpərvər Şairi" poeziya diplimu ilə təltif edilmiş,bir çox antologiyalarda,qəzet və jurnallarda şeirləri,poemaları dərc edilmişdir.

"Axırıncı güllə", "Peyğəmbərlər", "Ana fəryadı", "Азербайджанцы в Татарстане " kitablarının müəllifidir.

"Ürəyimin harayı" kitabı şeirlərdən, poemalardan ibarətdir.

## İMAM HÜSEYN
*(bu gün Aşura)*

Üstünə göndərdi Yezid ,ləşgəri,*
Kərbübəla döndü qana ,ya Hüsen.
Göydən mələklər də ,süzürdü yeri,
Daşlar da ağladı sana, ya Hüsen,
Kərbübəla döndü qana ,ya Hüsen.

Gördün haqq pozulur, çoxalır zillət,
Haqqı xatırlatdın, göstərdin qeyrət.
Qana qəltan oldun,dostların, külfət,
Mələklər də yandı sana, ya Hüsen,
Kərbübəla döndü qana, ya Hüsen.

Başını kəsdilər, bələndin qana,
Yetmiş iki şəhid verdin Qurana.
Mələklərin məlhəm qoydu yarana,
Göylər də ağladı sana, ya Hüsen,
Kərbübəla döndü qana, ya Hüsen.

Qundaqda körpənin bitdi həyatı,
Göründü daha da ,Yezidin zatı,
Nəşlərin üstündə çapdılar atı,
Sübhan da ağladı sana, ya Hüsen,
Kərbübəla döndü qana ,ya Hüsen.

***-qoşun.**

## BIRLƏŞ TÜRK DÜNYASI, GÖYLƏRƏ UCAL!

Türk oğlu Türk ayıl, gözlərini aç!
İkiyüz milyonla dünyaya nur saç!*
Parçalanıb yanma, cəhalətdən qaç!
Cahangirlik dövrün sen yadına sal!
Birləş Türk dünyası, göylərə ucal!

Türkmən,Özbəkistan,can Azərbaycan,
Türkiyəm, Qaqauz, Kipr, Qazaxıstan,*
Tatar, Çuvaş, Başqırd,həm Qırğızıstan.
Dilin bir, qanın bir, öz kökündə qal!
Birləş Türk dünyası, göylərə ucal!

Oğuz,Uyğur,Qıpçaq,Bulqarlar qardaş,*
Böyük Hun dövrünə aparır yaddaş,
Çox qədim tarixə söykənibdir yaş.
Əyilmə kimsəyə, dostluqdan güc al!
Birrləş Türk dünyası, göylərə ucal!

Qardaşa qardaş ol, olma bivəfa!
Gözləmə nankordan sədaqət, vəfa!
Hiyləgər tayfadan hey çəkdik cəfa,
Özgə süfrələrdə axtarırlar yal,
Birləş Türk dünyası, göylərə ucal!

Ey başı bəlalı Gülüstan kəndi,*
Kəsdilər o gündən bərəni, bəndi.
Qardaş ürəyinə şəkdilər səddi,
Bölündü Vətənim, olmuşuq bihal,
Birləş Türk dünyası, göylərə ucal!

Gözü yaşlı qaldı böyük bir elim,
Kəsib doğradılar hey dilim-dilim.
Təbriz ayrı düşdü, üzüldü əlim,
İşğal altındayıq, qalx qələbə çal!
Bütöv Azərbaycan, göylərə ucal!

***200-250 mil.**
***Şimal Kipr Türk Res.**
***türklər dil mənşəyinə görə 4-qola bölünür,(41- ləhcə)**
***12.10.1813,10.02.1828-ci il,**
**Gülüstan,Türkmənçay müqaviləsi.**

**30.06.2020.**

## SƏN EY VƏTƏNİMİN, İGİD ƏSGƏRİ!

Tutuldu torpağım, böləndü Vətən,
Başımın üstünü aldı duman, çən,
Şuşam paytaxt oldu gavura həmən,
Yanır Qarabağım, yanır hər yeri,
Qalxın Vətən oğlu, Vətən əsgəri!

Otuz ildir artıq, çox keçib zaman,
Hər gün axıdılır hey günahsız qan,
Gülür üzümüzə şərəfsiz düşman,
Ağlayır, sızlayır əsir gözləri,
Qalxın Vətən oğlu, Vətən əsgəri!

Şərurla Zəngəzur, gözəl İrəvan,
Mehri getdi, ayrı düşdü Naxçıvan,
Bir-bir qoparıldı bədənimdən can,
Silinsin ölkəmdən düşmən izləri,
Siz ey Vətənimin şanlı əsgəri!

Xocalım, Laçınım, Şuşam, Əsgəran,
Kəlbəcər, Cəbrayıl, Ağdam, Zəngilan,
Xankəndim, Fizulim, Qubadlım tüğyan,
Baxır yana-yana, özlər bizləri,
Sən ey Vətənimin ,İgid əsgəri!

Daşınır ölkəmin qızılı, daşı
Vətən göylərinə hopub göz yaşı,
Qaçqındır bir milyon öz vətədaşı,
Axır şəhid qanı, gəzir düzləri,
Qalxın Vətən oğlu, Vətən əsgəri!

Babam şah İsmayıl, Nadir şah Əfşar,
Qurdu imperiya, tarixdə yaşar,
Hindistan tutuldu, dünya xəbərdar,
Unutma şöhrətli, şanlı illəri,
Sən ey Vətənimin, igid əsgəri!

Ölək birdəfəlik, ya da var olaq,
Kişilik rəmzini qoruyub qalaq,
Birləşib torpağı haylardan alaq,
Silinsin ürəkdən Vətən dərd-səri,
Siz ey vətənimin ,igid əsgəri!

**08.06.020.**

## HAYDI HÜCUMA!

Ey ulu millətim, ey Azərbaycan!
Bölünüb ürəyim, parçalanıb can.
Hər gün axıdılır Vətənimdə qan.
İt kimi diş atır "hay"cuma-cuma,
Haydı igid əsgər, haydı hücuma!

Çoxsaylı xalqlarıq, vahid bir millət,
Babalardan gələn ünsiyyət, ülfət,
Bir Vətən içində qardaşlıq vəhdət,
Böyük Turan elim, güc ver qoluma!
Haydı igid xalqım, haydı hücuma!

Otuz ildir gözüm gözləyir zəfər,
Nə vaxt Qarabağa edəcək səfər?
Daha ürəyimdə qalmayıb təpər.
Qırın zəncirləri, nur saç yoluma!
Haydı igid əsgər, haydı hücuma!

Əsir gedənlərim qalıbdır darda,
Bir milyon qaçqınım hey intizarda,
Məzar daşlarımız bilinmir harda,
Düşmən hiyləsinə Vətənim, uyma!
Xan Şuşam ağlayır, haydı hücüma!

Dığalar Vətəndə sulayır meydan,
Axtarma kənardan özünə həyan!
Azadlıq yolumuz döyüşdür, inan!
Arxalan xalqıma, doğma soyuma!
Qarabağ gözləyir, haydı hücuma!

İnləyir torpağım, gözləmə daha!
Səni and verirəm gözəl Allaha!
Qisas günlərini qoyma sabaha!
Ey ulu Vətənim, yatma, uyuma!
Şair əsgərinəm, haydı hücuma!

**11.08.2020.**

## DÜNYA

Dərd vurur ürəyə, qopardır haray,
Sağalmaz yaralar vurursan ,dünya.
Hər gün ağırlaşır vəziyyət, həyat,
Bir yandan boşalır,dolursan,dünya.

Silahlar toqquşur,dur,deyən də yox,
Boğazdan asılır,haqq geyən də yox,
Kasıblar soyulur, varlı daha tox,
Getdikcə saralıb solursan, dünya.

Vurursan insana sağalmaz yara,
Xoşbəxt günlərimiz olur zil-qara.
Kaş ki, tapılaydı hər dərdə çara,
Yetimin boynunu burursan, dünya.

Nə qoca bilirsən, nə uşaq, cavan,
Üyüdür durmadan, əzir dəyirman.
Gəzir üstümüzdə dəhşətli duman,
Haqlının divanın qurursan ,dünya.

Haramxor, müftəxor çağrılır başa,
Düz olan çırpınır hey daşdan-daşa,
Ömrünü kəsirsən, baxmırsan yaşa,
Kiməsə gülüstan olursan ,dünya.

Qaniçən birinə verirsən meydan,
Hər bir əməlindən süzür qızıl-qan.
Rəbbini köməyə çağıran bir can,
Qana qəltan olur, yolursan, dünya.

# HƏKİM

Xəstəyə şəfadır məlhəm ürəyin,
Ümidsiz gözlərə işıqsan həkim,
Gülümsər gözlərin ümid yandırır,
Sən həyat çeşməsi,bulaqsan həkim.

Sadiq bir əsgərsən əlində silah,
Dilindən düşməyir heç zaman Allah,
Işə tələsirsən hər ərkən,sabah,
Ürəklər qızdıran ocaqsan həkim,

Sənsiz bu dünyanın hər günü kədər,
Ölüm tüğyan edər,yaşamaq hədər,
Sevinc bexş edirsən,hər axşam,səhər,
Bütün insanlara dayaqsan  həkim.

Bir kabus dolaşır gəzir dünyanı,
Alıb caynağına minlərlə canı,
Belə çətin gündə sizə tay hanı?
Könüllər yandıran çıraqsan həkim.

Şirin sözlərindir xəstəyə dərman,
Xəstənin gülüşü sənə ərməğan,,
Səni ürəyində yad edir Sübhan,
Xalqın keşiyində oyaqsan həkim.

## İLHAM, ƏRDOĞAN

Azadlıq!-hayqırdı, qalxdı ayağa,
Üçrəngli bayrağım ucaldı dağa.
Çəkildi ölkəmdən o, mənfur»ağa»*
Gedəndə işğalçı tökərək al qan,
Ey başı bəlalı, can Azərbaycan!

Azad Vətənimə hörüldü tələ,
Bürüdü hər yeri məkrli hiylə.
Haylar qısqırıldı üstümə belə,**
Tutuldu Qarabağ, başlandı hicran,
Başın nələr çəkdi,ey Azərbaycan?!

Gözlədik xeyli vaxt, əzildi şərəf,***
İnlədi Qarabağ, yandı hər tərəf.
«Sülh»deyən ölkələr saxladı tərəf,
Haqq, dedi İsrail, Türküm, Pakistan,
Var olsun dostların, ey Azərbaycan!

Başını dik tutdun, ayağa durdun,
Dünyanı titrətdi müzəffər Ordun.
Əzilən haqqını dünyadan sordun,
Əllərin üstündə müqəddəs Quran,
Ey Vətən övladı İlham, Ərdoğan!

Alaraq xalqından ilham, cəsarət,
Dünya hali oldu, gördü şücaət.
Mənfur düşmənləri bürüdü heyrət,
İki qardaş millət, bədəndə bir can,
Ey igid sərkərdə İlham, Ərdoğan!

İrəvan, Zəngəzur edildi peşkəş,****
Yenə kəsilmədi göz yaşı, atəş.
Söndü Vətənimdə parlayan günəş.
Yüz ildə bir qarış verməyən düşman,
İndi qoyub qaçır can qorxusundan.

Ordumuz güclənir, artır günbəgün,
Şuşada bayrağım asılan o gün,
Gavurlar ölkəmdən itsin büsbütün!
Xalq, Sizə verəcək Milli Qəhrəman!
Ali Baş Komandan İlham, Ərdoğan!

Əzirsən düşməni ey şanlı əsgər,
Bir-bir azad olur kənd,rayon,şəhər.
Sizə duaçıyıq hər gün hər səhər,
Sübhan da, zəfərə kəsəcək qurban,
Siz ey Vətən oğlu İlham, Ərdoğan!

Ey şəhid ruhları ,gözünüz aydın,
İşğaldan qurtulur sənin torpağın,
Ucalir Vətəndə şanlı bayrağın,
Babək ,Koroğlutək cəngavər baban,
Ey Vətən övladı İlham, Ərdoğan!

Əsgər nərə çəkir,qalib gəlir haqq,
Murdar ayaqlardan qurtulur torpaq.
İndi başımızda dik durur papaq.
Sizə əhsən deyir, can Azərbaycan,
Eşq olsun sizlərə İlham,Ərdoğan!

***-sovet imp.**
****-iti qısqırtmaq.**
*****-30-il**
******-1918,1920- ci il.**

**26.09.2020 ci il.**

## EŞQ OLSUN SİZƏ

Ey Vətən övladı,sən ey vətəndaş!
Otuz il ağlayır hər cığır,hər daş.
Başlandı hay-larla amansız savaş.*
Əsir torpaqlarım qovuşur bizə,
Ali Baş Komandan,eşq olsun sizə!

Bir-bir qoparılır,birləşir Vətən,
Dığalar əzilir,düşübdür pərən.
Əlli milyon millət gülür ürəkdən,
Şəhid ruhları da, çıxıbdır düzə,
Ey şanlı əsgərim, eşq olsun sizə!

Gözün aydın olsun, ey Azərbaycan!
Qurbanın olmağa hazırdır hər can.
Tülkütək quyruğun qısaraq düşman,
Qaçır ölkəmizdən, qaçır diz-dizə,
Ali Baş Komandan,eşq olsun sizə!

Ey əziz Türkiyəm, ey qan qardaşım,
Bizə dayaq duran dostum, sirdaşım.
Ağır günlərimdə, ey Vətən daşım,
Mənfur gavurlarla durduq üz-üzə,
Eşq olsun Türkiyəm, eşq olsun sizə!

Ey Vətən övladı, gəlin qabağa!
Bəzənsin yollarım gülə, bayrağa!
Şəhid əsgər gəlir, qalxın ayağa!
Əyirəm başımı can üzə-nüzə,
Ey Şəhid əsgərim,beşq olsun sizə!

Düşmənin üzülür, üzülür bağrı,
Tutub havadarın qarnını ağrı,
İşğal torpaqlarım alınıb yarı.
Gəlməsin əsgərim nəzərə, gözə,
Ey Vətən övladı, eşq olsun sizə!

Boşalır rayonlar, boş qalır papaq,
Çəkilir ölkəmdən, o murdar ayaq.
Tezliklə Şuşada qalxacaq bayraq.
Gedirik qabağa hey əzə- əzə,
Aıi Baş Komandan, eşq olsun sizə!

***hay-erməni**

**15.09.2020.**

## ŞƏHİDLƏR

Yazdı öz qanıyla,can Azərbaycan,
Azadlıq yolunda neçə-neçə can.
Üçrəngli bayrağım oldu qızıl qan.
Göstərdi cəbhədə rəşadət,hünər,
Xalqın yaddaşına hopdu, şəhidlər.

Ölməzlik suyuna onlar bələndi,
Vətən torpağından çiçək ələndi.
Göylər pərisindən gülab çiləndi,
Ruhları dərgaha köçdü igidlər,
Qanlarıyla Vətən yazdı,şəhidlər.

Ölümün gözünə dikdi gözünü,
Vətənim sağ olsun-dedi sözünü.
Qurban verdi arzusunu, özünü,
Kitablar bəzədi, o qəhrəman ər,
Azadlığı qanla yazdı,şəhidlər.

Arxalı köpəklər arxayın oldu,
Murdar ayaqları ölkəmə doldu.
Açan qərənfillər saraldı, soldu,
Hayların qanıyla dolaraq səngər,
Düşmən məzarını qazdı, şəhidlər.

Dəmir dirəkləri vurub keçdilər,
Bir-bir düşmənləri əzib biçdilər.
Şəhidlik şərbətin bal tək içdilər,
Sərrast atəşlərlə yarıldı sədlər,
Qanlarıyla tarix yazdı, şəhidlər.

## ŞAİR ƏSGƏRİNƏM

Ey igid əsgərim,ey Vətən oğlu,
Şuşamın yoludur azadlıq yolu.
Başlandı haylarla amansız savaş.
Quduzlaşıb hürür it kimi düşmən,
Şair əsgərinəm, mən də bu gündən!

Otuz il göz yaşı axıdır xalqım,
Otuz il əzilir, pozulur haqqım.
Yağdırın düşmənin başına alov.
Tezliklə geydirək haylara kəfən,
Şair əsgərinəm, mən də bu gündən!

Yazılır tarixə, o şanlı adın,
Gözünə ox batır yağının, yadın.
Səninlə ucalır zəfər bayrağım!
Göz dikib yoluna, bu ana Vətən!
Şair əsgərinəm, mən də bu gündən!

Ey igid əsgərim, sən bir qəhrəman,
Unutmaz sizləri, əlli milyon can.
Yandır Qarabağda bayram şamları!
Anam Azərbaycan öpür üzündən,
Şair əsgərinəm, mən də bu gündən!

Türkiyəm,Pakistan həm Əfqanıstan,
Bizə dəstək duran neçə gülüstan.
Xaricdə yaşayan milyonla soydaş,
Sənin yanındadır, öpür gözündən,
Şair əsgərinəm, mən də bu gündən.

Bir-bir torpaqlarım edilir azad,
Sevinir insanlar, gözləri gülşad.
Yeni tarix yazır axıtdığın qan!
Yardım et İlahi, pənahımsan sən!
Şair əsgərinəm, mən də bu gündən

Sil qara ləkəni,Vətən olsun ağ!
Çəkdirək düşmənin ürəyinə dağ.
Düşmən hiyləsinə uyma amandır!
Olsun Qarabağın hər yeri gülşən!
Sübhan da əsgərdir, sizə bu gündən!

**10.10.020.**

## RİYAKAR DÜNYA

*(İşğalçıya göz yuman bəzi dünya birliklərinə,ölkələrinə)*

Yarandı dünyada xeyli təşkilat,*
Ki,bitsin haqsızlıq, sevinsin həyat.
Amma, azalmadı, çoxaldı qat-qat,
Ədalət pozulur, gəlmirsiz haya,
Saxta sülh carçısı, riyakar dünya!

Gözünüz tutulub, olmusuz kor,kar,
Verdiyiz qərarlar olur qərəzkar.
Ya da unudulur, qalır boş-bekar,
Xocalım dağıldı, görmədiz, aya?
Ey tərəf saxlayan, riyakar dünya!.

Otuz il Qarabağ olundu işğal,
Verdiyiz qətnamə dayanıbdı lal.**
Bir milyon insanım didərgin,bihal,
Daha bəsdir ,utan, etginən həya,
Saxta sülh carçısı, riyakar dünya!

Xalqımız dözmədi, durdu ayağa,
Büründü bayrağa, getdi qabağa.
Türkiyəm, Pakistan döndü dayağa,
Deyirsiz, vuruşma, əl vurma»haya"
Ey tərəf saxlayan, həyləgər dünya!

İşğalçı ölkəyə təzyiqin hanı?
Niyə müdafiə edirsiz «yan»ı?****
Mülki əhalinin tökülür qanı,
İnsan naləsini görməyirsiz ya?
Siz ey ikiüzlü, hiyləgər dünya!

Verirsiz əlinə dəhşətli silah,
Yaşayış evləri yeksan olur,ah!
Nə abır bilirsiz, nə də ki,günah,
Zinadan törənib sizdəki maya,
Siz ey ikiüzlü, hiyləgər dünya!

***-BMT,ATƏM,ATƏT.və.s**
****BMT-nin 4 qətnaməsi, 822,853,874,884.**
*****-hay-dığaların adı.**
******-yan-dığaların adı.**

**31.09.020**

## AYAQ İZİM VAR

Çoxdandır ayrılıq salıbdır yağı,
Görünmür gözümə, Şuşanın dağı.
Kabab çəkdiyimiz, İsa bulağı,
Kaman nalə çəkər, oxuyardı tar,
Mənim də o yerdə ,ayaq izim var!

Vaqifi, Zakiri gəl yada salaq,
Oxu Natəvanı sən varaq-varaq.
Köçərli, Nəcəfi yetirən torpaq,
Bizlərə veribdir neçə sənətkar.
Mənim Daşaltıda, ayaq izim var!

Üzeyir, Yusiflər yaşayan Şuşa,
Şiş uclu dağları hey qoşa-qoşa,
Xuraman qayası bürünüb daşa,
Əhməd Ağaoğlu, sənətkar Cabbar.
Bülbül gəzən yerə ,bir salamım var!

Pənah xan ucaltdı, edərək abad,
Bir müddət adlandı o, Pənahabad.
Sonralar qayıtdı yenə köhnə ad,
Tarixi çox qədim, tarixdə yaşar,
O Cıdır düzündə, ayaq izim var!

Vaxtiylə çal-çağır olan bir şəhər,
İndi qan ağlayır hər səhər-səhər.
Şuşa xanlarına işləyən nökər.
Tutdu Qarabağı, tutdu havadar,
O Xarı Bülbülə ,şad xəbərim var!

Budur, qoç igidlər qalxıb ayağa,
Ordumuz oxşayır alınmaz dağa.
Qaçır torpağımdan şərəfsiz dığa,
İnşəallah bayrağım Şuşada qalxar,
Mənim Qarabağa bir salamım var!
Mənim də o yerdə ,ayaq izim var!

**03.11.2020.**

## QƏHRƏMAN ŞUŞA

Sən ey tarix yazan qəhrəman əsgər!
Vuruş meydanında göstərdin hünər!
Xalqın dar günündə qeyrətli bir ər!
Bu gün azad etdin, qurtuldu Şuşan!
Gözün aydın olsun, can Azərbaycan!

Vətən müharibəsi aparır Vətən,
İt kimi qovulur ölkəmdən düşmən.
Gözü götürməyən yanır içindən.
Azad oldu bu gün ,o cənnətməkan,
Gözün aydın olsun, ey Azərbaycan!

Siz ey tülkü kimi həyləgər tayfa!
Səndən çox uzaqdır etibar, vəfa!
Sülənir qap-qapı, gəzirsən şəfa!
Artıq son nəfəsdir, verirsiniz can!
Gözlərimiz aydın, ey Azərbaycan!

Tarixi şəhərim qovuşdu bizə,
Xarı bülbüllərim çıxdılar düzə.
Qara gecələrim döndü gündüzə,
Salam söyləyirlər Vaqif ,Natəvan,
Gözlərimiz aydın, ey Azərbaycan!

Ali Baş Komandan, gözümüz aydın!
Məzarını qazdıq düşmənin ,yadın.
Ey şanlı əsgərim, həkk oldu adın!
Üçrəngli bayraqla yüksəldi Şuşan!
Yeni tarix yazdı əsgər, komandan!

Ey dəyərli xalqım, sən ey sirdaşım!
Vahid bir cəbhədə olan qardaşım!
Türkiyəm, Pakistan tarix yaddaşım!
Sübhan Abasbəyli, sizlərə qurban!
Sən ey tarix yazan, can Azərbaycan!

## NƏ OLDU?

Tutub Qarabağı edirdiz bayram!
Özgə hesabına gurlayan tayfa!
Suyumu,daşımı somurduz tamam!
Dəyişdi zəmanə, ömrünüz soldu!
Bayram edirdiniz, sonu nə oldu?!

Yüz illər xalqımı gətirdiz zara!
Vurduz analara sağalmaz yara!
Qara addımlarız iz saldı qara!
İgid, şanlı Ordum Şuşaya doldu,
Yallı gedirdiniz, sonu nə oldu?!

Çağırdız xaricdən xeyli hayları!
Artdı Qarabağda nacins sayları!
Bulandı çirkaba Vətən çayları.
Allahın qəzəbi sizləri buldu,
Fironluq edirdiz, sizə nə oldu?!

Əcdadınız Sumbat quraraq tələ,
Sərkərdə Aqşinlə gələrək dilə,
Dostu Babək Xürrəm verildi ələ.
Atanızdan qalan riyakar yoldu,
Şərəfsiz işlərin sonu nə oldu?!

«Məğlubedilməzik»deyirdiniz siz!
«Qəhrəman millətik»söyləyirdiniz!
Harda pis iş varsa orda sizdən iz!
Balayan əliylə körpəm soyuldu,
Nöqtə qoyurdunuz, sizə nə oldu?!

Topxana meşəsin qırıb çatdınız!
Qonşu ölkələrdə xeyli satdınız!
Haram tikə yeyib rahat yatdınız!
«Qarabağ elimdir!»Nida qoyuldu,
Yallı gedirdiniz, sonu nə oldu?!

## ŞƏHİD ƏSGƏR

Dönsəydi kağıza hər dağ, hər qaya,
Dəniz də, mürəkkəb olsaydı əgər,
Yazarlar dursaydı yerdən ta Aya,
Yenə vəsf etməyə acizdir bəşər,
Sizlərin haqqında, ey şəhid əsgər!

Yeni tarix yazdın, dillərdə dastan,
Torpağın qayıtdı ,özün verdin can.
Qovuldu ölkəndən işğalçı düşman.
Gətirdin Vətənə xoşbəxtlik, zəfər,
Sən ey şəhid olan, yenilməz əsgər!

Tökülən qanından bitdi gül-çiçək,
Açdı torpağımız hey ləçək-ləçək.
Gözlərimiz güldü, sevindi gerçək.
Sizləri unutmaq olarmı məgər?
Şəhidlik taxtında əyləşən əsgər!

Hayların gözünə çəkərək min dağ,
İşğaldan qurtuldu doğma Qarabağ.
Qalxdı xan Şuşada üçrəngli bayrağ!
Qanlı döyüşlərdə göstərdin hünər!
Düşmənə zərbəni endirən əsgər!

**20.11.2020.**

## ALNIMZ LƏKƏLİ GƏZDİK BİR ZAMAN

Dayaqsız ağacı hey döyər külək,
Sınar xol budağı, quruyub gedər.
Bulaq çaya dönməz, axarsa o, tək,
Yalqızlıq üzündən didilər aslan,
Kaş ki, olmayaydı qardaşsız insan.

Tək olduq həyatda, əzildik, yandıq,
Qarı düşmanları dostumuz sandıq.
Əyrini, yaxşını sonradan qandıq,
Olmadı qardaşdan bəzə çox yanan,
Kaş ki, olmayaydı köməksiz insan.

Böləndü yarıya millətim, dilim,
Zindana salındı ,boğuldu elim.
Araz sərhəd oldu, kəsildi əlim,
O günlər tarix də ağladı, aman!
Qara bir ləkəmiz oldu Gülüstan.*

İşğalçı ölkələr kələk biçdilər.
Haylara yenidən «vətən»seçdilər.*
Haqqı, ədaləti vurub keçdilər,
Millətim yerinə qurdular plan,
Kimlərdi satılan, kimlərdi alan?

Süfrəmin başında oturdu yağı,
«Kirvə» deyə-deyə açdıq qucağı.
Vurdular arxadan xəncəri, dağı,
Satqınlıq üzündən getdi neçə can,
Kaş ki, olmayaydıq belə “mehriban»

«Yan»lar Vətənimdə oynatdı atın,
Sonda başa düşdük onların zatın.
Əlli min xalqımın kəsdi həyatın.
Töküldü ölkəmin hər yerində qan,*
Yenə ayılmadıq, baş oldu duman.

Şərqdə ulduz doğdu, parladı çıraq,
Qalxdı Vətənimdə yenidən bayraq.
Müstəqil ölkəmdən yayıldı soraq,
Gözü götürmədi zəhərli çayan,
Boğuldu beşikdə can Azərbaycan.

Bağışlandı «hay»a qədim İrəvan,
Zəngəzur ,Dərəlyəz, Göyçə, Dilican,*
Şəruru da aldı, doymadı düşman,
Millətim əzildi, qovuldu yurddan,
Kaş ki, olmayaydı çarəsiz insan.

Xisləti qoymadı olsunlar rahat,
Susub gözlədilər əlverişli vaxt.
Qorbaçov yaratdı şərait, heyhat!
Şəhərlər, rayonlar tutuldu, aman!
Kaş ki, olmayaydı köməksiz insan.

Yandı torpaqlarım, oldu tarimar,
Vətəndə xalqımın günü ahuzar.
Ağladı milyonlar, ağladı zar-zar.
Axdı su yerinə Qarabağda qan,
Kaş ki, olmayaydı vətənsiz insan.

Bu tayda qardaşa açılıb savaş,
O tayda ağlayır, sızlayır qardaş.
İkiyüz illərdir gözümüzdə yaş,
Üzür qəlbimizi ayrılıq, hicran,
İnan, faciədir buxovda insan.

Düşmən, Qarabağı edərək işğal,
Ağır məğlubuyyət bizi etdi lal.
İllərlə ləkəli, olmuşduq bihal,
Başımız aşağı gəzdik bir zaman,
Kaş ki, xəcalətli olmaya insan.

Ey mənim Türkiyəm, sən ey xilaskar,
«Köməksiz qoymarıq»etdin xəbərdar.
Qorxuya düşdülər səsindən»hay»lar,
Bizə kömək edən dostlar, Pakistan,
Sizləri unutmaz, can Azərbaycan!

Müzəffər Ordumuz qalxdı ayağa,
Vətənim büründü üçrəng bayrağa.
Qaçdı ölkəmizdən o, mənfur dığa,
Ali Baş Komandan, Milli Qəhrəman,
Yazdin yeni tarix, qoy bilsin cahan!

***-1813, 1828-Gülüstan, Türkmənçay müqavilələri, İran-Rusiya.**
***_Hay-erməni**
***-1905,1918-ci illər.**
***_Dərələyəz**

**28.11.020.**

## QUZEYDƏN GÜNEYƏ BİR SƏLAMIM VAR

Dəmir bir yumuruq oldu xalqımız,
Hər qarış torpaqdan axdı qızıl qan.
Qardaşlar birləşdi, döndü haqqımız,
Qalib əsgərlərlə bəzəndi meydan.
Zəngəzur,Mehri də, ağlayır zar-zar,
İnşəallah birləşər ,öz məqamı var.

Üç mindən yuxarı hər şəhid əsgər,
Behişt bağlarını bəzəyib gəzər,
Önündə mələklər gül-çiçək düzər.
Şəhid qanlarıyla boğuldu hicran.
Sorurlar, “İrəvan nə vaxt qovuşar?»
Deyirəm ,onun da, öz məqamı var.

Tökdülər minlərlə günahsız al-qan,
Qovuldu o yurddan, yüz əlli min can.
Haylara edildi Dərəlyəz qurban.*
Şərurum, Dilican qalıbdır giryan,
Göyçəyə deyin ki, çəkmə intizar!
İnşəallah birləşər, öz məqamı var.

Ey əziz Ərdoğan, ey əziz qardaş,
Atdın düşmənlərin içinə bir daş-
«Arazı böldülər» söylədin birbaş.
Qorxdular yadların, əsdilər yaman,
Güney qardaşlarım səsimi duyar,
Quzeydən Güneyə bir səlamım var.

***Dərələyəz**

## ÜRƏYİN AĞILLA SÖHBƏTİ

Bir gün ürək dindi, gələrək dilə,
Süzüldü gözündən yaş gilə-gilə.
Sızlayıb, kövrəlib dəyişdi halət,
Döyünə- döyünə etdi şıkayət.
-Ey ağıl, üzünü bürüyüb kədər,
Əridib ömrünü verirsən hədər.
Saçın ağaranda etdim xəbərdar,
Eşitmədin məni, qulaq oldu kar.
Qəm-qüssə çoxaldı,aldı qoynuna,
Tezliklə gələcək həyatın sona.
Özgə dərdlərini çəkirsən niyə?
Niyə sən verirsən zillət ,ürəyə?
Hərənin həyatda öz qisməti var,
Allahın bildiyin bilməz canlılar.
Məni də, salırsan çətinə, qəmə,
Hər gözü yaşlını çəkir sinəmə.
Yaşa həyatını ,şad-xürrəm yaşa,
Etina göstərmə gözlərdə yaşa.
Özünü fikirləş, sən olma yanan,
Şam da əriyərək yox olur haman.
Zülmətli gecənin bir sabahı var,
Günəş tutularsa yenə bərq vurar.
Bir də görürsən ki, ağlayan gülər,

Onun da içindən sevinc süzülər.
Özgə dərdlərini çəkmə, ey ağıl!
Tez sönər həyatın, olar bir nağıl.
Vaxt axır su kimi ,geriyə dönməz,
İlahi qanunlar üzülməz, sönməz.
Ürək ,bax beləcə xeyli danışdı,
Qovrularaq, o qəlb yandı, alışdı.
«Yorulmuşam»dedi, gileyləndi çox,
Töhməti, tənəsi sanki yanar ox.
-Dinlədim mən səni sevimli ürək,
Deyə, Ağıl dindi ,danışdı gerçək.
-Vətən kədərini çəkib almasam,
Axan göz yaşına şərik olmasam,
Bəs onda o ürək nəyimə gərək?
Möhtaca əl tutub etməsə kömək!
Günəş öz şöləsin saçmasa əgər,
Bərqərar olarmı yerində məgər?
Belə bir həyatın mənası nədir?
O ki, başdan-başa bir viranədir.
Mənə biganəlik edirsən təlqin,
Nəyini mən sevim belə ürəyin?
İstəmirəm daha, döyünmə, ürək!
Gözü yaşlılara etməsən kömək!!!
Ürək çox düşündü, gələrək dilə,
Belə ərz eylədi o gülə- gülə:
-Necə istəyirsən o cür də yaşa,
Köhlənin ayağı dəyməsin daşa.
Ancaq ki, ey ağıl, vermə əziyyət,
Sən gəl ürəyinə çəkdirmə zillət.
Axı, döyünməsəm işləməz qanın,

Həyatı tərk edər, çürüyər canın.
Səninlə birlikdə gözəl arzular,
Onlar da ,bir anda əriyər, solar.
Hər bir kədərinlə incitmə məni,
Qoru bu döyünən əziz qəlbini..
Ağıl, gülümsəyib ürəyə baxdı,
Ürəkdən ağıla məhəbbət axdı.
İki dost sevinib düşdülər yola,
Kaş ki, bax beləcə barışıq ola..

## OLMAZ!

Qanqalın toxumun ək qızıl qaba,
Yenə qanqal bitər ,çəmənzar olmaz.
Zatında zəhəri varsa ilanın,
Evdə də bəsləsən xoşrəftar olmaz.

Biəsil insana olsan da qurban,
Hər gün əzizləyib söyləsən də,can,
Ardına düşəsən hey daban-daban,
Xəyanət edəcək, düz ilqar olmaz.

Hər üzə güləndən gözləmə vəfa.
Yolunda çəksən də min əzab, cəfa,
Eyləsən dərdinə sən, əlac, şəfa,
Arxadan vuracaq, etibar olmaz.

Süləyən insana ver milyon «para»
Dəyiş əyin-başın, geydir zər-xara,
Çatdır kasıblıqdan dövlətə, vara,
Yenə sülənəcək, həya, ar olmaz.

Gördüm bu dünyada əyrini, düzü,
Ağa qara deyən çox insan üzü.
Yalanlar üstündə göyərən sözü,
Bir gün faş olacaq, bəxtiyar olmaz.

İşğal torpağıyla var olan dövlət,
Zindanla, asmaqla ucalan dövlət,
Göz yaşı içindən qurulan dövlət,
Bir gün xar olacaq, ixtiyar olmaz.*

***ixtiyar-qoca,yaçlı..**

## ÜRƏK QAN AĞLAYIR...

Yandırır bayırım, çölüm özgəni,
Kənardan baxanlar sanır bəxtəvər.
Dağ boyda qara daş hey əzir məni,
Getdi ürəyimdən "can"adlı gövhər,
İçim qan ağlayır hər gün, hər səhər.

Ömrümün baharı saraldı, soldu,
Sevıncli günlərim kədərlə doldu,
Səmum küləkləri nəsibim oldu.
Dərd əyir qəddimi, öldürür qəhər,
Ürək qan ağlayır hər gün, hər səhər.

Üzdə üzüm gülür, ürək olur lal,
Bədənim süstləşir, oluram bihal,
Harama çevrilir yediyim halal.
Həyatın hər anı dad verir zəhər,
Ürək qan ağlaylr hər gün, hər səhər.

Susmur dəyirmanın ey fələk, usan!
Üzülür həyatdan, gedir nocavan.
Hər gün yetim qalır neçə-neçə can,
Bağ saldım, suladım, görmədim bəhər,
İçim qan ağlaylr hər gün, hər səhər.

Bir ata gözündən süzülməyə yaş,
Bir ana, qapıda qurmaya bardaş,
Bir cavan ömrünə toxunmaya daş,
Həyatı olmaya nakam, dərbədər,
Ürək qübar edir hər gün, hər səhər.

## YUMUR GÖZLƏRİNİ,SUSUR "MÜSƏLMAN"

*(bəzi müsəlmanlara)*

Ölkədə əkdirir tiryəki bol-bol,
Xaricə satmağa tapır gizli yol.
Görür ki, məsciddə saxlanır donuz,
Siyasət donuna bürünür, aman!
Yumur gözlərini, susur»müsəlman».

Yazdirir duanı,»yıxsın bir evi»,
Saldırsın evinə «əcinnə,devi»
Fırlanır həyətin hey dairəvi,
Molla da caduya girişib yaman,
Tələsir namaza sonra»müsəlman».

Toplaşır tinlərə, qızışır meydan,
Alır ağuşuna buynuzlu şeytan.
Zəhərli dilindən süzülür böhtan,
Qeybət qıra-qıra keçirir zaman,
Tələsir namaza sonra»müsəlman».

Sinədən yuxarı, başında hicab,
Sinədən aşağın edibdir «sirab»
Geydiyi hər paltar bayağı, əzab,
Hicab da modaya verilir qurban,
Dondan-dona girir indi»müsəlman».

Dünyanın əvvəlin, sonunu görən,
Canlının, cansızın ömrünü hörən,
Ey uca Allahım, sənsən hay verən,
Niyə dar ağacdan asılır insan?
Verdiyin canları alır»müsəlman»

Çox da bel bağlama dövlətə-vara,
Vallah, gəlməyəcək öləndə kara,
Göz yaşı içindən yığılan para.
Haram tikələrdən uzaqlaş, usan!
Halalıqla yaşa sən ey»müsəlman!»

## QORU TÜRKIYƏMI, EY UCA RƏBBIM

Yenə qıydı sənə qaniçən düşman,
Çətin günlərimin köməyi, qardaş!
Yanır meşələrin, kəndlərin, aman!
Oldun həyatımın məlhəmi, sirdaş,
Çətin günlərimin köməyi, qardaş!

Ürək nalə çəkir, ucalır fəryad,
Bu gün faciəmi bayram edir yad.
Ola düşmənlərin yurdları bərbad!
Axır ürəyimdən damla-damla yaş,
Çətin günlərimin köməyi, qardaş!

Təbiət odlanıb, yanır, kül olur,
Dünya gözlərimdə saralır, solur,
Ürək göz yaşıyla ağlayır, dolur,
Düşəydi бaisin başına bir daş!
Ağır günlərimin köməyi ,qardaş!

Nəhəng ölkələrlə üz-üzə durdun,
Haqlının haqqını onlardan sordun,
Haqsızın başından, əlindən vurdun,
Açdın düşmənlərə mərdanə savaş,
Sən ey dar günümün köməyi ,qardaş!

Sənsən dünyalarda ən əsas hakim,
Sənsən qibləgahım, bir ayrı heç kim,
Qoru Türkiyəmi, ey Uca Rəbbim!
Sübhan da duaçı ,qurubdu bardaş,*
Çətin günlərimin köməyi, qardaş!

***_ayaqları yığıb əyləşmək, dua vaxtı**

**Kazan -2021.02.08.**

## GƏL SALAM GÖNDƏRƏK AZƏRBAYCANA

Dedim ki, gəl gəzək çölü, çəməni,
Əl-ələ, göz-gözə çıxaq dağlara.
Şirin gülüşlərin ucaltsın məni,
Dönək xatirəyə, keçmiş çağlara.

İçək bulaqların mavi gözündən,
Təbiət qizının girək qoynuna.
Keçək İstisudan, Cıdır düzündən,
Sarılaq Vətənin doğma boynuna.

Dönək axar suya, vəhşi bir selə,
Yuyaq torpağımın kirli izlərin.
Müzəffər bayrağım ucalsın zilə,
Oyaq gavurların xain gözlərin.

Minək şimşək ata, dünya eşitsin,
İrəvan, Zəngəzur ağlar, yaralı,
İlahi, yardım et, ayrılıq bitsin,
Naxçıvan qalmasın ayrı, aralı.

Bir salam söyləyək Laçın, Şuşama,
Cəbrayıl ,Fizuli, Hadrut, Ağdama
Kəlbəcər, Qubadlı, o Zəngilana,
Doğma ana yurdum Azərbaycana.

**Kazan -29.06.21**

## DƏNİZ

Dəniz ,yadındamı bir qız, bir oğlan?
Gəzərdi qoynunda sənin bir zaman.
Mavi gözlü qızı sevərdin sən də,
Qalıbmı onlardan ürəyində iz ?
Sən ey mavi gözlü ,dalğalı dəniz!

Yanına gələndə tutub əl-ələ,
Şaqraq ləpələrin dəyib sahilə,
Sevinib baxardın hey gülə-gülə.
Darıxardıq səni görməyəndə biz,
İlk görüş günləri, ey mavi dəniz.

O mavi gözləri salanda yada,
Gəlirəm yanına, çatırsan dada.
Ürəyim dincəlir sənə baxanda,
Olmusan bizlərə mehriban,əziz,
İlk görüş günləri ,ey mavi dəniz.

Bir gün sahilinə gələrək mehman,
Gördün tək gəzirəm, darıxdın yaman.
Dalğalar sordular səbəbin haman,
Külək də qanadın sallayıb səssiz,
Baxmadız üzümə, ey mavi dəniz!

## GƏL SƏHƏR-SƏHƏR

*Arxiv*
*(1985-ci ildə Şuşada olanda)*

Günlərin birində girdim bağçaya,
Bir gülə uzatdım əl səhər-səhər.
Qaşqabaq göstərdi, etmədi insaf,
Gözləri söylədi gəl səhər-səhər.

Hər gülün öz ətri, ruha verir can,
Bülbül də oxuyur, cuşa gəlir qan.
Bir şeir söylədim, baxdı mehriban,
Gedəndə eylədi əl səhər-səhər.

Üzümə hey baxdı mənalı,dərin,
Gözəllər gözəli bu gözəl yerin.
Gözlərin gözünə çəkdi şairin,
İşarə eylədi qal səhər-səhər.

Külək haray salır, öpür telindən,
Günəş gülümsəyir, tutur əlindən.
Bir mahnı istədim şirin dilindən,
Oynadı yanaqda xal səhər-səhər.

Doğma Vətənimin hər yeri əzəl,
Masallı ,Lənkəran füsünkar, özəl.
Qarabağ torpağı ondan da gözəl,
Şuşanın havasın al səhər-səhər.

## ATA BİLMİRƏM

Çəkilib sinəmə sərvi-cəmalın,
Qoparıb kənara ata bilmirəm.
Gecə ulduzları, gündüz günəşi,
Gəzib axtarıram, çata bilmirəm,
Qoparıb kənara ata bilmirəm.

Danışıb gülürük, baxıb üz-üzə,
Bəzən inciyirik, gəlib söz-sözə.
Tutaraq əl-ələ, durub göz-gözə,
Görürəm röyadı, yata bilmirəm,
Kəsib ürəyimdən ata bilmirəm.

Telefon zəng çalır, alıram ələ,
Səsini gizlədib, gəlmirsən dilə.
Ürək çırpıntısın duyuram belə,
Sözümü sözünə qata bilmirəm,
Ürəkdən çıxardıb ata bilmirəm.

Gözüm gözlərinin içində qaldı,
Ürəyimi çəkdi, kəməndə saldı.
Saçların ruhumu özümdən aldı.
Qövsi qaşlarına bata bilmirəm,
Qoparıb kənara ata bilmirəm.

## ƏRİYİR ÖMRÜMÜZ

Su tək axıb gedir,dəyişir zaman,
Üzülür ömrümüz,qədd olur kaman.
Dolaşır göylərdə qara bir duman,
Usanmaq da bilmir,ağarır göz,qaş,
Əriyir ömrümüz hey yavaş-yavaş.

Bir vaxt ürəyimiz deyirdi «mənəm»
Ağıl da susurdu,küsürdü bu dəm.
Gözdən keçirirdi yüzlərlə sənəm,
Bu gün ürək dinmir,ağıl olub baş*
Əriyir ömrümüz hey yavaş-yavaş.

Əyləşib köhlənə çapır dördnala,
Uzaqlaşıb qaçır,heç baxmır dala.
Düşürük bu halda hallardan,hala,
Cavanlıq tələsir, yox olur qardaş,
Əriyir ömrümüz hey yavaş-yavaş.

Nə gecə bilirdik, nə gündüz, toran,**
Daim hərəkətdə, yaradan, quran.
Getdikcə tükənir qüvvəmiz, inan,
Artıq girib evə qurmuşuq bardaş,***
Əriyir cavanlıq hey yavaş-yavaş.

Dünyanın amansız qanunları var,
Dünənki tacidar bu gün günahkar.
Sənə dost deyənlər olur qərəzkar,
Yox olur ətrafdan, yanından sirdaş,
Qocalır ömrümüz hey yavaş-yavaş.

Polad qanadların göyləri dəlir,
Etdiyin xahişlər həmən düzəlir.
İndi əngəlliklər əlçatmaz gəlir,
Yemək yeməyə də çətin gəlir aş,
Əriyir cavanlıq hey yavaş-yavaş.

Dağlar zirvəsində qartalı süzən,
Gülləni durnanın gözündə düzən,
Dünyanı dolaşan, ormanlar gəzən,
Sübhan Abasbəyli qalıbdı çaş-baş,
Qocalır ömrümüz hey yavaş-yavaş.

A dostlar, dostların qədrini bilək,
Ürək dərdlərini paylaşaq, bölək.
İnsana qiyməti sağlıqda verək.
Öləndə qızildan neynirəm başdaş,
Əriyir cavanlıq hey yavaş-yavaş

***baş-birinci.**
****toran-alaqaranlıq,yarıqaranlıq.**
*****bardaş-ayaq.qucaq.oturmaq.**

## TƏKƏBBÜRLÜ İNSAN

İblis bir mələkdi, etmədi səcdə,
Tekebbürlü ruhu gəldi o həddə,
Həzrəti Adəmə biçdi həd-hədə.
Başladı hiyləyə, olaraq pünhan,
Girdi ürəklərə ,məluni-Şeytan.

İnsanlar içində elə insan var,
Aranı qatmaqda olubdu pərgar.
Sözü, söhbətləri bədxah, riyakar,
Danışır elə bil, o Əbu Süfyan,
Xarici insandır, batini Şeytan.

«Mənəm»lik yandırır, boğulur için,
Kök salıb qanında, ürəyində kin.
Başında dolaşır buynuzlu bir cin,
Dilin zəhərlidir, gözlərin çayan,
Xeyrli işlərə pəl vuran Şeytan!

İblisin bayrağın tutmusan ələ,
Gəzirsən evləri belədən-belə,
Qeybət qıra-qıra güc verib dilə,
Gözəl işimizə vurursan ziyan,
Daxili çürümüş eybəcər Şeytan!

Ürəyin saxtadır,gözün baxar kor,
Kəsdiyin çörəyi unudan nankor.
Fikrin işi pozmaq,toxumaqdır tor,
Çirkin əməlindən uzaqlaş,utan !
Xeyirli işlərə pəl vuran Şeytan!

Qayıt uçurumdan, yaxşılara bax !
Yaxşı insanların sən yoluna ax !
Təkəbbür, paxıllıq, hiyləni burax !
Şair Abasbəyli söyləyir, haman,
Xeyriyyə işinə pəl vuran Şeytan!

## ƏLVİDA!

Susaraq baxırdıq, qalıb göz-gözə,
Günəş də, şöləsin saçmırdı bizə,
Təbiət lal-dinməz dönüb səssizə,
Quşlar oxumurdu, süzürdü küsgün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

Qaşın düyünləndi, gözlərin doldu,
Yanağın allandı, bənizin soldu,
Dünya gözlərimdə tarimar oldu,
Ürək də çırpınır, döyünür ölgün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

«Ayrılıq çətindir, bağlıyam sənə»
Dilin kəsik-kəsik söylədi mənə.
Ruhum alışaraq hey dönə-dönə,
Bədənim süstləşib,olmuşdu üzgün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

Səni qəhər boğdu,,kipriyin endi,
Xurmayı saçların qara geyindi.
Ürək yana-yana inlədi, dindi,
Danışa bilmədin üzüldü sözün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

Göylər də hayqırdı, ildırım çaxdı,
Görüş ağacımız inləyib baxdı,
Qəlbimə qəm-kədər sızlayıb axdı,
Mənə baxa- baxa titrədi gözün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

Ətraf bulud oldu, göz yaşın yağış,
Dəniz də qəmliydi, etmirdi alqış,
Yaz da inciyərək dönüb oldu qış,
Kədər pərdəsinə büründü üzün,
Mən sənə»Əlvida!» dediyim, o gün.

O sənli günlərim bir-bir canlanır,
Ömür də şam kimi əriyir, yanır,
Ürək ,həsrətinlə çırpınır, anır,
İstirab çəkirəm, həyatım köçgün,
Yanıldım»Əlvida!» dediyim, o gün.

**11 iyun 2020.**

## MƏHƏBBƏT DASTANI

Bu dəli könlümü eyləyibdir ram,
Düşdüm kəməndinə, olmuşam əsir.
Gözəllik önündə əriyir qamət,
Gözlərim gözündə, ürəyim əsir.

Gəlib yetişmişik güllü bir yaza,
Nazü-qəmzələri çatıb ıldıza.
Könlüm hey istəyir,nazından yaza,
Süzgün baxışları, dilimi kəsir.

Sevgi bir ümmandır,bilinmir sonu,
Ürək tellərindən yoğrulub donu.
Hər an ürəyimdə, görürəm onu,
Özümü özünə bənd edib, çəkir.

Arabir təbəssüm yollayır mana,
Ox olub kipriyi hey batır cana,
Xurmayı saçları dönüb dastana,
Ruhumu, ruhunun içində əkir.

İşvəsi, cilvəsi tutub bağlayır,
Həyat çeşməsidir, gözü çağlayır.
Yerişi, duruşu ürək dağlayır,
Ədası qılıncdır doğrayır, biçir.

Sübhan, dostlarının dərdinə yandı,
Dostun söylədiyin şeirlə andı,
Məhəbbət dastanı qəmə calandı,
Vüsalın yerinə indi dərd  içir.

## KAŞ KI, BIR QUŞ OLUB UÇA BILƏYDIM

*(Dəniz üzərində, qağaylar təsvir olunmuş*
*gözəl bir mənzərəni gördüyüm zaman)*

Kaş ki, bir quş olub uça biləydim,
Səmadan gül üzüb verərdim sənə.
Mavi buludlardan toxuyub xalça,
Yolunun üstündə sərərdim sənə.

Yayın istisində bir parça buzu,
Ayağın altında kəsməyə quzu,
Uçub ulduzlara, bir-bir ulduzu,
İti caynağımla dərərdim sənə.

Dolaşıb dünyanı hər axşam, səhər,
Dərin dəryalardan çıxardıb gövhər,
Hurilər bağından meyvəni tər-tər,
Gözəllik çələngi hörərdim sənə.

Gözəl məkanlardan toplayıb çiçək,
Hər bir çiçəklərdən minlərlə ləçək,
Kəssə də yolumu qar, boran, külək,
Qızıl sapa düzüb, verərdim sənə...

## "KAŞ KI,O GÜN OLAYDI,
## O GÜN,BU GÜN OLAYDI!"

*(Bu iki misra Vilayət xanım İsmaylovaya məxsusdur,
oxudum,xoşum gəldi və ardını davam etdirdim)*

Kaş ki, o gün olaydı,
O gün, bu gün olaydı.
Yenə də o, gələydi,
Qəm-kədəri siləydi.
Baxaydı gözlərimə,
Qarışa sözlərimə.
Şirin-şirin güləydi,
Dərdlərimi böləydi.
Diqqət verib sözümə,
Gözlərini gözümə,
Sakit-sakit baxaydı,
Mən tərəfə axaydı.
Kaş ki, o gün olaydı,
Ürəyimə dolaydı.
Gəzə-gəzə illəri,
Xatırlayıb günləri,
Əllərimdə əlləri,
Gözlərimdə gözləri,
Gəzib yaşıl bağları,
O mehriban çağları,

Xatırlayıb anaydıq,
Biz əbədi qalaydıq.
Alaydım hər bir əlin,
Darıxan əllərimə,
Mənsiz keçən hər ilin,
Qarışa illərimə.
Gələ ürəkdən səsi,
Məhəbbət əfsanəsi.
Kaş ki, o gün olaydı,
O gün, gün olaydı!

**Kazan .2021.12.08.**

## EY HƏKİM ,ƏL SAXLA!

*(Kazan şəhərində ,Respublika mərkəzi xəstəxanasında yatdığım zaman)*

Vəsiyyət eylədim Uca Tanrıya,
Cərrah "stol"unda olduğum zaman.
"Narkoz"veriləndə döndüm arxaya,
Keçdi gözlərimdən həyatım, aman!
Bıçağın önündə durduğum zaman.

Dünya gözlərimdə qaraldı, durdu,
Əzrayıl yanımda bardaşın qurdu.
Övladlar canlandı ,boynunu burdu,
Qaraldı başımın üstündə duman,
Bıçağın önündə durduğum zaman.

Ey həkim ,əl saxla, gözləyənim var!
Ürək parçalanıb, olubdur qübar!
Vətən uzaqdadır, qalmışam naçar!
Ruhum hey sızlayır, ağrıyır yaman!
Bıçağın önündə durduğum zaman!

Həkim ,ürəyimdə hiss etdi təlaş,
Əlimdən yapışdı o, yavaş-yavaş,
Ürəyim narahat ,ey həkim qardaş!
Körpə övladlarım gözləyir, inan!
Bakıdan Kazana gəldiyim zaman.

**Kazan-05.08.021.**

## NƏ TEZ GƏLDİ ƏLLİ BEŞ YAŞ..

*(Şeir,gözəl və dəyərli dostum Cəfərov Asəf Novruzəli oğluna ithaf olunur və onun arzusuyla yazılıb. 55-yaş cavanlığın zirvəsidir, Dost!)*

Həyatımız xana-xana,
Günlər, illər yana-yana,
Quşlar kimi uçdu, getdi,
Uşaqlığım, o xanlığım,
Külə dönən cavanlığım!

Baxdım sola, baxdım sağa,
Təəssüf hissi yağa-yağa,
Gördüm qaçıb çox uzağa,
Xəzan olan yaşıl bağım,
Ay əriyən cavanlığım!

Gözüm açdım ,ağardı baş,
Hardan gəldi əlli beş yaş?
Gücüm çatmır açım savaş,
Silkələndi uca dağım,
Yelə dönən cavanlığım!

Oynayardıq -"aşıq-aşıq",
"Gizləndiqaç"-bir yaraşıq,
"Şuppi-şuppi","mərə-mərə",
Toplaşardı ora hərə.

"Toqqa-toqqa","Ya ənzəli-
əl üstündə kimin əli",
"Beşdaş"-ları ata-ata,
"Bənövşə"-yə çata-çata,
Gözləyərdik "Novruz"gələ,
Səs yayıla köyə ,elə
Yumurtalar salardı səs,
Toplaşardı ora hər kəs.
Axşam düşər, şər qarışar,
Dəsmal, papaq sərhəd aşar.
Gözlər ,gülüş paylayardı,
Sevinc, şadlıq çağlayardı.
Çöldə evcik qura- qura,
Gah yıxılıb dura- dura,
Su tək axdı gözəl çağım,
Sona yetən uşaqlığım!

Onbeş yaşa çatar-çatmaz,
Kəhər atım oldu batmaz.*
At yalına yata- yata,
Dərə- təpə qata- qata,
Boya çatdım at belində!
Vətənimin mərd elində!
Kitab-dəftər dostum oldu,
Qucağıma hər gün doldu.
Tələbəlik vaxtı gəldi,
Arzu- dilək divar dəldi.
Bir göz açıq, biri yatdı,
Tələbəlik sona çatdı.
Gəldi qısa bir fasilə,

Nəzər saldım aya, ilə.
Yandı içim, yandı bağrım,
Çətin yolum, ürək ağrım.
Zəhmət dolu ömür yolym,
Alın tərim, gücüm, qolum,
Gözlərimdən süzüldü yaş,
Nə tez gəldi əlli beş yaş.
Damla-damla ürək yağım,
Şah əsərim, o xanlığım!
Ay əriyən cavanlığım!

**Kazan-22.08.2021.**

## GƏL MASALLIYA

*Doğulduğum,boya-başa çatdığım*
*Masallıya iki poema həsr etmişəm.*
*Bu şeirim də hədiyyəm olsun.*

Əgər arzulasan Talış dağların,
Yaşıl yamacların, barlı bağların,
Gözəl "İstisu"yun, gur bulaqların,
Dağda pətəklərə ,əli ballıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

Gedək Yanardağa, Viləşə, bəndə,
Baxaq zirvələrdən Xəzərə, kəndə,
Belə gözəllikdən dayanma gendə!
Düzdə ceyranlara, üzü xallıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

"Halay"-ın şöhrəti gəzir dünyanı,
"Nənələr"oxuyur, susdurur canı.
Başda tac ediblər Azərbaycanı.
Cənub zonasında qədim yallıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

Qızlağac qoruğu, limonu, çayı,
Şaqraq şəlalənin tapılmaz tayı.
Gələn qonaqların bilinmir sayı,
Qaçağan atlara, polad nallıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

İynəyarpaq, palıd, motal, tozağac,
Qızılgöz, qəndələş, nil, dəmirağac,
Gözəllik simvolu xeyli növ ağac,
İki göz hey baxa ,iki əl saya,
Görmək istəyirsən, gəl Masallıya.

Bir yanı Talış dağ, bir yanı Xəzər,
Beş qonşu rayonlar ətrafın bəzər.
Durna qatarları ötəndə süzər,
Qədim xalçalara, qədim xalıya,
Baxmaq istəyirsın, gəl Masallıya.

Döyüşə atıldı, qalib gəlsin haqq!
Qəhrəman oğullar yetirən torpaq!
Şəhid Qanlarıyla ucaldı bayraq!
Gavurları qova- qova, haylıya!
İgidlər məsgəni, gəl Masallıya!

Orucu, namazı ,əlində Quran,
Əlləri qabarlı, yaradan, quran,
Başında hicabı, ürəkdə iman,
Yüz yaşlı nənəyə, beli şallıya,
Görmək istəyirsən, gəl Masallıya.

## QISMƏTIN OLSUN

*(Qızım Gülnar müəllimənin ad gününə)*

Şirin-şəkər, gözəl qızım, Gülnarım,
Sağlam bir həyatın, dövlətin olsun.
Çingizin toyunda qol-qanad açıb,
Gəlinlə oynamaq qismətin olsun.

Həyatda xoşbəxt ol, gülərüz yaşa,
Heç zaman ayağın dəyməsin daşa.
Rahidlə yüz ili vurasız başa,
Halal duz-çörəyin zəhmətin olsun.

Aygülüm, Gülayım tutsun əl-ələ,
Məryəmə, Saraya səadət dilə!
Rəcəb bəy, Xədicəm yaraşıq, elə,
Çingizin övladı şöhrətin olsun.

Elçinim, Əsmərim, Əli bəy, sizə,
Kədər-qəm düşməsin ürəyinizə.
Məhəmmədəlim də adlasın yüzə,
Fatimə, Zeynəbim zinyətin olsun.

Vətən qədrini bil, Vətən bizə can,
Vətənin naminə tökülüb al- qan.
Var olsun həmişə qoy,Azərbaycan.
Vətən düşmənlərim nifrətin olsun.

Sübhan Abasbəyli, yalvar Allaha,
Həsənbəy Leyluşum oxşasın "şaha".*
Zəhragül həyatda ucalsın daha,
Anan Kərbəyalı izzətin olsun.

***-ucalıq mənasında**

## DOST İTGİSİ

*Bir il ötdü ,o gündən.*
*Unudulmaz dostum,gözəl insan,xeyriyyəçi, Tatarstan RİT Azərbaycan MMM-ın sədri Bəşir Bəşirovun əziz xatirəsinə.*
*Allah rehmət eləsin səni, əziz dost.*

Verdilər Kazandan qara bir xəbər,
Başım dumanlandı,dünya qaraldı.
Ayaqda durmağa tapmadım təpər,
Ürəyim döyündü ,dayandı bir an,
İtirdim həyatda daha bir insan.

Sözün ağırlığı çökdürdü dizə,
Kədər qığılcımı töküldü üzə.
İnana bilmədim deyilən sözə,
Dondu ayaqlarım, alovlandı can,
İtirdim həyatda daha bir insan.

Dünya, alışıram özüm-özümdən,
İlk əziz övladım getdi gözümdən.
İndi də, dostumu aldın əlimdən,
Ruhum ağı dedi,yandı hey, aman!
Getdi həyatımdan daha bir insan.

Kaş ki,etməyələr analar fəryad!
Atalar çiynində getməyə övlad!
Cavan ürəyində solmaya murad!
Atasız olmaya körpə heç zaman!
Getdi həyatımdan daha bir insan.

Bir yas məclisində kədərlə dindi,
Bu fani dünyadan şikayət etdi,
"Bir vaxt eşidərsiz Bəşir də getdi"*
Bu sözü söyləmiş çox əvvəl, inan!
Qardaşım bildiyim o, gözəl insan.

***-Dəyərli insan,filoloq Sakit müəllimin cavan qardaşının yas mərasimində, Bəşir müəllimin dediyi cümlə. Allah hər ikisinə rəhmət eləsin!**

## TƏBRİZİMƏ SƏLAM APAR!

*Cənubi Azərbaycan İranın altında*
*bir barıt anbarıdır ki, hər an partlaya bilər.*

Vətənimin o tayına,
Külək, bizdən səlam apar.
Həsrətinə dözmür ürək,
Bal şərbətli kəlam apar,
Quzeyimdən səlam apar.

Təbrizimin yolları daş,
Ayrı düşüb iki qardaş.
Dərd əlindən ağarıb baş,
Sərhədləri çəkib, qopar!
Qardaşıma səlam apar!

Yanır bağrım, alışır can,
Parçalanıb Azərbaycan,
Babəkimin ruhu al-qan,
Haqq-ədalət yerin tapar!
Bütöv yurda səlam apar!

Zəncirlənib qardaş qolu,
Tikanlanıb Vətən yolu,
Dar ağacı sağı-solu,
İnildəyir sinəmdə tar-
Şəhriyara səlam apar!

Bölünmüşük iki yerə,
Tutulubdur bəndi-bərə.
Gözü yaşlı qalıb hərə,
Araz üstə gəlib baxar,
O gözlərə səlam apar!

Ürəyimə çəkdilər sədd!
Araz çayı oldu sərhəd!
Kölə olduq, əyildi qədd!
Quzeyimdə dilləndi yar-
qardaşıma səlam apar.

İnanıram bir gün gələr,
Bütöv Vətən üzə gülər,
Bayrağımı gülə bələr,
Sevinc atın Sübhan çapar!
Təbruzimə xəbər apar!

**26.09.2021.**

## ÜRƏYIMƏ QATIN SƏSIN!

Əs ey külək, o diyardan,
Xəbər gətir mənə ordan.
Gözlərimi qurtar dardan,
Günəş bizə nur çiləsin,
Ay da baxıb gülümsəsin.

Hər kəlməsi müjdə yağa,
Hey ucalda məni dağa,
Geri dönəm, qədim çağa,
Araz çayım əl eyləsin,
Ay da baxıb gülümsəsin.

Bir-bir sözü ətir saça,
Arzularım bol-bol aça,
Kədər itə, uzaq qaça,
Daş-kəsəyi gül bələsin,
Qardaş üzü gülümsəsin.

Dağ-dərəni ötə-ötə,
Uzun yollar bitə-bitə,
Qəmi-hcran itə-itə,
Abasbəyli qurban kəssin,
Bakı,Təbriz gülümsəsin.

Əsən külək, yatıb qalma!
Xəyallara çox da dalma!
Məni dərdə-qəmə salma!
Kəs qabağın bədin, nəsin!
Sevincimə qatın səsin!!!

## GÖZ YAŞI

Ömür-gün yazanda timsaha üçyüz,
Verdin qarğaya da, yüz yaşı, Allah.
İnsanın payına əlli yaş,yetmiş,
Onun da çox ili göz yaşı ,Allah.

Dünyaya gələndən gedənə qədər,
İzləyir bizləri ,əzir qəm-kədər.
Qocalıb köç etmək gözəl bir səfər,
Kaş ki, üzülməyə gənc yaşı, Allah.

Göndərdin bizlərə Kərimi-Quran,
Bəzən siyasətə verilir qurban.
Məsciddə donuza susur müsəlman,
Onların başına tök daşı ,Allah.

## MÜQƏDDƏS AD

Ey Vətən uğrunda can verən Şəhid!
Adın mqqəddəsdir, özün müqəddəs!
Ən yeni tarixi yenidən yazdın,
Sən ey tarix yazan, sözün müqəddəs!

Həzrəti Hüseynin yolunu getdin!
Şəhadət ünvanlı zirvəyə yetdin!
Solan bir arzumu qanla göyərtdin!
Can verdiyin dağın ,düzün müqəddəs!

"Qarabağ köməyə çağırır məni"
Deyərək ,tərk etdin öz ailəni.
İti qovan kimi, qovdun düşməni,
Arxaya boylanan gözün müqəddəs!

Otuz il ağladım ,alnımda ləkə,
Vətən həsrətini hey çəkə- çəkə,
Ümid göz yaşımı mən tökə-tökə,
Üzümü ağ edən üzün müqəddəs!

Qarabağ torpağın diz- diz süründün!
Gah dağa dırmandın, düzdə göründün!
Vətən sevgisinə,gülə büründün!
Qələbə məşəlin, közün müqəddəs!

Həkk oldu tarixə əbədi adın!
Ucaldı Vətənin, qəhr oldu yadın!
Şəhid təxəllüsü oldu soyadın!
Haqqa qovuşduğun günün müqəddəs!

Sübhan Abasbəyli hey sizi anır,
Ürəyi sizinlə bir vurur, yanır.
Şair də özünü bir əsgər sanır,
Anadan olduğun köy-ün müqəddəs!

## FARSDAN AVROPAYA AXIR "AĞ ÖLÜM"

Otuz il Qarabağ edildi işğal,
Məsciddə donuzu gördü,oldu lal.
İran bazarına mülküm qatıldı,
Topxana meşəsi orda satıldı.
Xocalım dağıldı, edildi viran,
Bizə dal çevirdi, sevindi İran.

Bürüyüb İranı yalan, xəyanət,
Hiylə,riyakarlıq, böhtan,cinayət.
İftira, təkəbbür çoxalır, artır,
Halal malımızı harama dartır.
Narko yolu oldu ötuz il çölüm,
Farsdan Avropaya axdı "Ağ ölüm"

Müzəffər ordumuz gətirdi zəfər,
İndi xan Şuşama edirik səfər.
Yağı düşmən görür, yanır, alışır,
Onun küdurəti hey coşub-daşır.
Sən ey Turan elım, yatma,qalx,oyan!
Sənin ürəyindir can Azərbaycan!

Hanı Təbrizimin məktəbi, dili?
Vurulan buxovdan əyilib beli.
Yazan ziyalının kəsilir əli,
Acı göz yaşında boğulur insan,
Haqq,deyən səsləri asırsan,aman!
Boğazdan yuxarı, saxta müsəlman!

Zəngəzur dəhlizi pozdu ,yuxunu,
Rusdan kömək umdun,vurdu oxunu.
İçindən, nifrəti bayıra tökdün!
"Dostluq"tellərini dibindən sökdün!
Qorxursan sülh olar evimdə haman!
Yuxun ərşə çlxar, dəyişər zaman!

Təlim adı ilə yeritdin ordu,
Türkiyəm, Pakistan önündə durdu.
Rus da qulağını, o yandan burdu,
Ordumuz, qarşında səddini qurdu.
Verməyə hazırdır yenə qızıl-qan!
Düşmənə əyilməz ,can Azərbaycan!

Sünnilik, şiəlik salınır işə,
Xalqlar həm millətlər vurulur dişə.
Çalışır, ölkəmdə təfriqə salsın,
Bizləri daxildən ilantək çalçın.
Sübhan Abasbəyli,düşünmə bir an!
Vahid bir cəbhədir, can Azərbaycan!

## AYDA GÖRÜŞƏK

Çoxdandır görünmür gözümə,gözün,
Bənd- bərə kəsilib gələ bilmirəm.
Xatirən danışır, dillənir sözün,
Bax ordan zirvəyə, gülək-gülüşək,
İlə qona- qona Ayda görüşək.

Leysan yağışlar da, gətirmir xəbər,
Daha ürəyimdə qalmayıb təpər.
Nə vaxt söküləcək tikanlı çəpər?
Yenə əvvəlkitək küsək-küsüşək,
İli ana- ana Ayda görüşək.

Şabalıd telini öpən hər əlim,
Ətirli sözünü dinləyən dilim,
Ürək hey istəyir həsrətin silim,
Əyləşək yel ata, ulduza düşək,
Göydə yana-yana Ayda görüşək.

Sənsizlik qəlbimi sıxır, daralır,
Gözlərini görmür ,gözüm qaralır.
Payız yarpağıtək ruhum saralır,
Soyuq qış günündə əsək,büzüşək,
Hicran şana- şana Ayda görüşək.

O kaman qaşların əqlimi aldı,
Gözlərin gözümün içində qaldı.
Qövsi kipriklərin kəməndə saldı,
Qoy olsun bizlərə ağ bulud döşək,
Saçın xana- xana Ayda görüşək.

## HEÇ DÜŞDÜMÜ ÖLÜM GÜNÜ YADINA?!

Ağa qara, qaraya ağ deyən kəs!
Heç düşdümü ölüm günü yadına?!
Vicdan itdi ,haqqa girdın, haqq yedin!
Vallah orda çatmayacaq dadına!
Düşdümü heç ölüm günü yadına?!

Riyakarlıq ,hiyləgərlik oldu baş!
Fitnə-fəsad sənlə oldu həmyoldaş!
Məzlum hayı, göz yaşları, ürək daş!
Qara xətlə yazılacaq adına!
Heç düşdümü ölüm günü yadına?!

Rüşvət aldın, oğurladın, taladın!
Xalq malını "malım"-bilib yaladın!
Çirkinliyi bir -birinə caladın!
Rəhm etmədin nə körpəyə, qadına,
Heç düşürmü ölüm günü yadına?!

Erməniyə qardaş-dedin, bal-dedin!
Qarabağı etdin talan, al, dedin!
Silah verdin, işıq verdin, qal, dedin!
Mənliyin də, getdi hiylə badına!
Heç düşdümü ölüm günü yadına?!

Tiryək əkdin, Qarabağım yol oldu!
"Ağ ölüm"-lər səndən çıxıb bol oldu!
Adın İslam, əməl saxta ,"nol" oldu!
Milyon-milyon yandı "narko"odına!
Heç düşdümü ölüm günü yadına?!

## EY ŞANLI ORDUM!

Nə qədər yazılsa şəninə əsər,
Yenə azlıq edər ,ey şanlı ordum.
Sildin tariximdən qanlı bir ləkə.
Bayram libasını geyindi yurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Gülüstan, Türkmənçay içimi yaxdı,
Böldü Vətənimi, qandalın taxdı.
Gavurlar sel kimi yurduma axdı.
Qərbi Azərbaycan, Qarabağ doldu,
Araz nalə çəkdi, saraldı, soldu.

"Hay"lar Vətənimdə çoxaldı yaman,
Axdı ürəyimdən yaş zaman-zaman.
Soyqırım törətdi, artdı çən-duman.
Doğma evimizdə olmadıq rahat,
İçimiz ağladl, bölündük çat- çat.

Yetişdi ikimin iyirminci il,
Azadlıq çələngi dolaşdı el- el.
Şairlər od tökdü, nəğmə qoşdu dil.
Əlimdə qələmlə xidmətdə durdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Ali Baş Komandan qalxdı ayağa,
O "dəmir"yumruq bənzədi dağa.
Xalqım da arxada döndü dayağa.
Əzilən haqqımı dünyadan sordum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Qırx dörd günlük döyüş gətirdi zəfər,
Tarixə yazıldı adın "Müzəffər".
İndi xan Şuşama edirik səfər.
Qələbə günləri min şənlik qurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

**04.11.2021.**

## AY DƏDƏ!

Bazarda qiymətlər çıxıbdır ərşə,
Kim necə istəyir yolur, ay Dədə.
Pul da öz dəyərin itirir hər gün,
İnsanlıq tükənir,solur ,ay Dədə!
Kim necə istəyir yolur ,ay Dədə!

Oğurluq, narkoman alıb hər yanı,
Hər gün neçə-neçə öldürür canı.
Bahalıq şüdd edir, gəzir dünyanı,
Pozğunluq çoxalır, artır get-gedə,
Qəlbimə od düşür, yanır ay Dədə!

Qaz da bahalaşır, tuta bilmirəm,
İşığı zülmətə qata bilmirəm,
Bir neçə yorğanla yata bilmirəm,
Donuram soyuqdan, alıram zədə,
Ürəyim kövrəlir, solur, ay Dədə!

Mağazalar necə gəldi "oynayır",
Ərzağın qiyməti daşıb-qaynayır.
Nəzarət edən də, öz pulun sayır,
Yal görəndə müti olur ,ay Dədə.
Kim necə istəyir yolur ,ay Dədə!

Bu aydan o aya yetməyir param,
Ağrıdır, incidir, sizladır yaram.
Ömür-gün əriyir hey,aram-aram,
Qanlı yaş süzülür, çirpınır didə,*
Baş alıb hayana qaçım,ay Dədə?

Diləndçi çoxalır, işsizlik artır,
Ehtiyac insanı pis yola dartır.
Köç edir Vətəndən, evini atır,
İnsanlar bir-birin hey didə-didə,
Kəndimiz boşalır,solur, ay Dədə!

İşbazlar sevinir, həm virus əkir,
Xəstəlik qılıncın üstümə çəkir,
Həkim də gözünü cibimə dikir,
Ailə yanında dil olub güdə,
Kim necə istəyir yolur,ay Dədə!

İndi günahkarı harda axtaraq?
Açaq kitabları, bax varaq-varaq.
Mal-qara görünmür,əkilmir torpaq,
Umuruq özgədən pay güdə-güdə,
Yoxsulluq evimə dolur, ay Dədə.

Gözəl Qarabağın həsrəti bitdi,
Qələbə müjdəsi Şuşadan yetdi.
Düşündük, hayların sədası itdi,
Havadar tez bizə biçdi həd-hədə,
İçimdə qıvrıldım, yandım, ay Dədə!

Sübhan arzu edir, iş yeri ola,
Zavodlar, fabriklər açıla, dola,
Cavanlar köçməyə, evində qala,
İtsin Qarabağdan o mənfur gədə,
Hələ arzularım çoxdur, ay Dədə!

***-göz**

## HƏR ATA,HƏR ANA DEYIL MÜQƏDDƏS!

*(“Ata”gördüm, atıb getdi körpəsin,*
*“Ana”gördüm, kəsdi körpənin səsin)*

Etdi bir hadisə özünə heyran,
Yırtıcı önündə bir ana ceyran,
Balası naminə verdi şirin can.
Ölüm ayağında körpəsin süzdü,
Ceyranın gözləri qəlbimi üzdü.

Hər uşaq doğana deyilmir, ana!
Müqəddəs,kəlməsi haramdır ona.
Minlərlə tək ana hey yana-yana,
Əriyir şam kimi, göz yaşı ,övlad!
Daşıyır ömürlük şərəfli bir ad.

Atalar görmüşəm övladın atır,
Özgə qapılarda çirkaba batır,
Qəflətdən ayılmır, uzanıb yatır.
On il, iyirmi il yox olur “ata”
Övladın gözündə o, bata-bata.

Ya zibil qutusu,ya da,çay, dəniz,
Atılmış körpələr salır qanlı iz,
Görəndə tüklərim dartılır biz-biz.
Bir şəhvət hissinə verilir qurban,
Ölən dilsiz körpə, öldürən “insan”.

Çox ailə var ki, axtarır ilac,
Gəzir şəhər-şəhər dərdinə əlac,
Bir körpə səsinə qalıbdır möhtac.
Gözləri qan süzür, çəkir intizar,
Biri də ,o yanda övlada bezar.

Ey insan, insan ol, insanlıqda qal!
Gəl ölüm gününü bir yadına sal!
Həyat imtahandır,bir utan,dərs al!
Övlad əmanətdir, verməyin acı!
Övladdır insanın başının tacı!!!

## BİLSƏYDİM

Bilsəydim ömür-gün qısaymış belə,
Ötən günlərimi verməzdim yelə.
Hər gün, hər anımı tutardım əziz,
Qoymazdım sızlaya,dən düşə telə.

## AĞLAMA, ANA!

*Ömrü yarımçıq qalan Şəhidlərimizə,*
*cavanlarımıza,o cümlədən İlkin balama ithaf edirəm.*

Mənim də istəyim, diləyim vardı,
Bəxtim qara gəldi, gözümdə qaldı,
Fələk çaldı məni, məndən apardı.
Tər-təzə çiçəkdim ,yetişdim sona,
Ağlama ardımca, ağlama, ana!!!

Mən də istəyirdim yaradam,quram,
Bacı-qardaşımla qol-boyun duram,
Al -qana boyandım, sızladı yaram.
Yandım için-için, bələndim qana,
Gözləmə balanı, gözləmə ,ana!!!

Ömür-gün niyə tez saraldı, soldu?
Başımdan axan qan üzümə doldu.
Yuxuda gördüyüm aşkara oldu,
Bədənim əzildi hey şana-şana,
Gedirəm uzağa, ağlama ,ana!!!

Ölüm, kabus kimi sinəmə qondu,
Həyatım qaraldı, gözümdə dondu.
Dəmir ,mişar olub içimi yondu,
Susuz dodaqlarım ,qal yana-yana,
Bir daha oğlunu gözləmə ,ana!!!
Əlvida ,söylədim mən bu həyata,
Bir daha oğlunu özləmə ,ata!!!

## TƏNHA EVLƏR

*(Öz Vətənini atan ,on illərlə elinə, obasına dönməyənlərə)*

Qapılar qıfıllı, gəlmir səs-səmir,
Bağlar susuzluqdan saralır, solur.
Yolu tikan basıb, gəlib-gedən yox,
Vəhşi heyvanlar da evlərə dolur,
Tənha evlərimiz baş-gözün yolur.

Müəllimi, həkimi, fəhləsi belə,
Niyə biganədir kəndinə, elə?
Axışıb köçürlər, qarışıb "selə"
Yaşlı ata-ana kövrəlir- dolur,
Tənha evlərimiz baş-gözün yolur.

Kəndimiz boşalır haray,ay haray!
Evlər tikilibdir sanki bir saray.
İçini küm basıb, sökülür lay-lay,
Zəhmətlə qurulan uçur, məhv olur,
Tənha evlərimiz baş -gözün yolur!

Sən ey Vətən oğlu, ölüm-itim var!
Evində kök salıb qarğa, quzğun,sar.
Məzar daşlarımız hönkürür zar-zar,
Sənli xatirələr göyə sovrulur!
Tənha evlərimiz baş- gözün yolur!

Doğma Vətənini unutma ,qardaş!
Uşaqlıq dostundur hər cığır,hər daş!
Qohum- əqrabanın ürəyində yaş!
Gözləri yollarda yanır, qovrulur!
Tənha evlərimiz baş-gözün yolur!

## XOŞ GƏLDİN, LAÇIN!

Otuz il zindanda qaldın Vətənsiz!
Otuz il göz yaşın töküldü, axdı!
Otuz il əzildin, yandın bədənsiz!
Bəzəyin yolları, qapını açın!
Qayıtdı evinə, qayıtdı ,Laçın!

Qızıl ağacına “Soyqırım” oldu,
İran bazarında satıldı, doldu.
Zümrüd meşələrin beləcə soldu,
Sal qaya daşların hey qırçın-qırçın,
Qovuşdu Vətənə,qovuşdu, Laçın!

Əl- ayaq zəncirdən açıldı indi,
Üçrəngli bayrağım sevindi, dindi.
Qalib əsgərlərim düşməni yendi!
Siz ey vətənsizlər, durmayın,qaçın!
Döndü öz evinə, döndü ,can Laçın!

Şişamın sağ əli, düşmən çəpəri,
Müzəffər Ordumun sinə dəftəri,
Məğrur dağ gözəli, elin təpəri,
Günəşim,Ulduzum, şöləni saçın!
Qayıtdı evinə, qayıtdı, Laçın!

Bu gün dalğalandı sinəndə bayrağ!
Düşmənin köksünə basıldı köz,dağ!
Yayıldı dünyaya xoş xəbər, növrağ!
Qartallar oylağı dağ, qaya yalçın,
Xoş gəldin evinə, xoş gəldin ,Laçın!

**26.08.2022.**

## SƏN EY QALİB ,HƏRB BAYRAĞIM!

*(İranda xalq hərəkatına ithaf olunur)*

Yaxın-uzaq tarix keçdin,
Sən, dönməzlik andı içdin.
Gah yenildin, gah ucaldın,
Torpağından ilham aldın.
Keçdiyin yol, hər bir cığır,
Şəhidlərin ,qan yaddaşın.
Tarixindir qayan, daşın,
Şan-şöhrətim, uca dağım,
Sən ey şanlı, hərb bayrağım!
Sən "Manna"dan çıxdın yola,*
Düşməndən bac ala-ala.
Hey dəyişdin, gerbin, özün,
Formalaşdın zaman-zaman.
Qonşuların qara ilan,
Hər addımda kələk, yalan.
Beş min illik tarixin var,*
Gah başına Günəş qondu,
Gah da, Quzğun,yırtıcı Sar.
Od tökülsün, yansın yağım,
Ucal, yaşa, hərb bayrağım!
Sağın, solun qıcıtdı diş,
Onlar etmiş buna vərdiş.
Özgə torpaq tuta-tuta,
Çirkinliyə bata- bata,
Odlar Yurdum böləndü,hey!
Yaralandı Quzey, Güney!

Araz çayım sərhəd oldu,
O Tay, bu Tay başın yoldu.
Xain qonşu ,səndən ,haray!
Göz yaşından tikdin “saray”.
O saray ki, özülü qan,
Qan süzülür zaman-zaman.
Sən Gülüstan, Türkmənçay!
Damğa vurdun xalqıma, oy!
İki bölüb tutdunuz “toy”!
Gözü yaşlı qaldı dilim,
Dilim oldu ,dilim- dilim.
Qardaş orda,qardaş burda,
Əlim çatmır gedəm yurda.
Hanı mənim qədim çağım?
Sən ey əziz, can bayrağım!

***

Böyük insan, o Sətdar xan,*
Azadlığa getdi qurban.
Xiyabani yandırdı şam,
İşıq saçdı səhər-axşam.
İran bir də çalxalandı,
Dövlət altda od qalandı.
Muxtariyyat tələb etdi,
Azadlığa qurban getdi.
Seyyid Cəfər Pişəvəri,
İnqilabın o ,sərvəri,
Şah rejimi, İngiltərə,
Tələ qurdu ona hərə.
Hökümətim süqut etdi,
Fars rejimi kama yetdi.

Arzu-istək döndü külə,
Zərbə dəydi ana dilə.
Azadlığım gəldı qara,
Azərbaycan aldı yara.
Zindan, əzab, işgəncə,hey!
Gözü yaşlı Quzey, Güney!
İtdi mənim ,o növrağım,
Ucal, ucal, can bayrağım!

***

Bu gün yenə Güney qalxdı,*
Göy gurladı ,şimşək çaxdı.
Məhsi Əmin kibrit oldu,*
Tehran,Girman,Məşhəd doldu,
Xalq qurtuluş andı içdi,
"Ölüm-dirim" yolun seçdi.
Qadın, kişi, qoca, cavan,
Küçələrdə bir izdiham.
Fars rejimi çəkdi silah,
Pənahımız uca Allah.
Yüzlər, minlər alır cəza,
Sındırılır qol-qıç ,əza.
Əldə silah tutur divan,
Şikəst olur, qoca, cavan.
Şəhriyarın ruhu dindi,
Məzar daşı silkələndi.
Qanla dolur öz torpağım,
Yatma,oyan,hərb bayrağım!
Nə məktəbin, nə də dilin!
Bağlanıbdır iki əlin!
Kitabın yox, öz yazın yox,

Danışana sancılır ox.
Fars rejimi qurur tələ,
Ya öldürür, ya da ələ.
Şantaj, qorxu, dar ağacı,
Güney sızlar acı-acı.
Bir əlində Quran-kitab,
Bir əlində zindan, əzab.
Ağı deyir çölüm, bağım,
Gözü yaşlı ,can bayrağım!

***

Erməniyə qardaş deyən,
Onu görüb belin əyən,
"Hay"a kömək yolun seçdi,
Xocalıdan gülüb keçdi.
Dövlətimə biçdi hədə,
Ordu yığdı o, sərhədə.
Araz çayım yanıb baxdı,
Gözlərindən al-qan axdı.
Otuz ildə susdu İran,
Qarabağım oldu biryan.
Erməniyə açdı qucaq,
İşıq verdi ,isti ocaq.
Ana yurdum alt-üst oldu,
Ağac ,daşla İran doldu.*
Məsçid oldu donuz yurdu,*
Fars rejimi susub durdu.
Erməniylə qurdu büsat,
Düşdü işə yeni həyat.
"Narko" yolu əldə etdi,
Onlar arzu-kama yetdi.

***

Qarabağım oldu azad,
Fars ağladı,etdi fəryad.
İçindəki kin tökülür,
Üz pərdəsi hey sökülür.
Şəhid qanlı ,ay oylağım,
İşıq saçan ,can bayrağım.
Döyüşlərdən keçib gəldin,
Düşmənimin gözün dəldin.
Qırx dörd günlük bir savaşım,
Yerdən qalxdı, utanc başım.
Yeni tarix yazdı, Ordum,
Xan Şuşada büsat qurdum.
Şəhidlərim ziyarətgah,
Rəhmət etsin ,Uca Allah.
Qazilərim ,sayğım, qayğım,
Mənim qalib, can bayrağım!
Şair Sübhan, vaxt gələcək,
Quzey, Güney bir güləcək.
Birləşəcək Turan elim,
Bir olacaq elim, dilim.
Türk qardaşım, son dayağım,
Sən ey şanlı, hərb bayrağım!!!

***Məsçidlərimizdə donuz sax..**
***_Qarabağdan evləri söküb ap.**
***_Məhsi Əmini**
***_16.09.022.**
***-Sərdari Milli-1905-1911**
***_dövlətçilik.**
***_İlk mərkəzləşmiş Az.dövıəti,**

E.əvvəl 9-cu əsr
Manna döv.əvvəl Güneyli Quzeyli Azərbaycanında, İran da daxiı olmaqla Azərbaycan -Türk dövlətləri.
1.Aratta döv.er.əv.3-minillikdə cənubi Azərb.
2.Lulibi döv.e.əv 23-cü əsr.Urmiya gölü sahil.
3.Quti döv.e.ə.3-min 2-ci yars.
4.Sak -sikifçarlığı Şimali Qərbi Az.yaranmış ilk döv. er.əv.7-əsr və er.əv 4-əsr
5.Manna.er.əv.9-əs.
6.Midiya er.əv712-550.
7.İskit er.ə.8-əsr.
8.Atropatena er.əv.4-3-əsr
9.Şirvanşahlar-941-1088.
10.Sacilər-879-941.
11.Salarilər-941-981.
12.Rəvvadilər 981-1065.
13.Şəddadilər 971-1088.
14.Qaraqoyunlar 1737-1469.
15.Ağqoyunlar 1378-1508
16.Səfəvilər 1501-1738
17.Əfşarlar imperiyası 1736-1747
18.Xanlıqlar və Qacarlar döv -1747-1925
20.Azərbaycan cümhuriyyəti 1918-28 may
21.Az.Res.1991-18 oktyabr müst.günü.

## GÖZÜM AĞLADI

Atalı günlərim düşdü yadıma,
Baxdım o illərə ,gözüm ağladı.
O idi köməyim,dadıma çatan,
Sözləri canlandı,sözüm ağladı,
Baxdım o illərə ,gözüm ağladı.

Əlləri qabarlı, zəhmətkeş insan,
Dilindən çıxmazdı acı söz,yalan.
Allahı hər anda yadına salan,
Getdi həyatımın onunla dadı,
Baxdım o illərə ,gözüm ağladı.

Atam, ürək sirrim,evim, dirəyim,
Mənə təhsil verən,halal çörəyim.
Ona söykənirdi arxam, kürəyim.
Hər zaman dilimdə çəkilir adı,
Atamı yad etdim, gözüm ağladı.

Sovet önəmiydi, vəziyyət çətin,
“Köləsiydi” qoca, cavan dövlətin.
İşləməkdən beli əyri ,millətin,
Salanda yadıma, qohumu, yadı,
Gördüm o illəri ,gözüm ağladı.

Babam Alı, İsa, Əhəd, Cahangir,
Ən qədim zamandan soyları gəlir.
Mal-mülk sahibləri ,şumlayır,əkir.
Sovet zorla aldı, ürək dağladı,
Baxdım o illərə, gözüm ağladı.

Əzizlərim ,atam,anam köç etdi,
Üç oğlum, bizləri tərk edib getdi.
Fələk, arzusuna, kamına yetdi.
Qəlbim,hey alışdı,yaram çağladı,
Sübhan Abasbəyli yazdı, ağladı.

## HƏZRƏTI SÜLEYMANIN VƏFATI

PEYĞƏMBƏRLƏR-kitabımdan
(e.ə.-989-931-təqribən)

Günlər, aylar ötdü, illər dəyişdi,
Süleyman şahlığı sona yetişdi.
Hər şeyin axırı ,vardır bir sonu,
Yaranan öləcək ,geyər "ağ donu"
Ya hökmüdar olaq, yada ki,gəda,
Bir gün ömrümüzü verərik bada.
Dünyaya gəlirik verək imtahan,
Qiymətlər verilir bizə sonradan.
Qiyməti dəyişmək gec olur, inan,
Yaxşı əməlləri biz qazanmadan.
Firon da ,Allahlıq eşqinə düşdü,
Dəryanın içində suya büzüşdü.
Qarun var-dövlətə,sərvətə yetdi,
Birdən yer yarıldı, zülmətə getdi.
Sübhan Abasbəyli, kənara çıxma!
Danış Süleymandan, boş yerə axma!
Böyük bir hökmüdar,hər dilə hakim,
Adını həkk etmiş Qurani-Kərim.
Quşlar, heyvanlarla danışar, dinər,
Cinləri günlələ işlədər, yenər.
Hər gün saatlarla səcdədə qalar,
Allahı yad etdir, xəyala dalar.
Xuda azaltmamış heç nəyi ondan,
Ona üstünlüklər vermiş çoxundan.

Allahın Elçisi, həm də hökmüdar,
Dünyanı yönəldən o ,bir cahandar...
Bir gün o, cinləri işlədən zaman,
Söykənir əsaya, baxırdı bu an.
Cinlər də qorxudan işləyir, baxır,
Onların gözündən ildırım çaxır.
Peyğəmbər, dayanmış,əlində əsa,
Cinlər də yol çəkir, batmışdı yasa.
Bu zaman pak ruhu canından çıxır,
Allah dərgahına qovuşur, axır.
Həzrət, ayaq üstə, çıxmışdı canı,
Cinlər də işləyir, tökür tər -qanı.
Onlar bilmirdilər Süleyman yoxdur,
Cansız bir bədəni yanar bir oxdur.
Yaradan, cinlərə anladır, yəni,
Bilməzsiniz sizlər, Allah biləni.
Allah, qarışqanı yetirdi bu dəm,
Əsanı deşdilər, gəmirdilər həm.
Əsa ağırlığa dözmədi, sındı,
Həzrətin cəsədi yerə uzandı.
Cinlər başlarına döydülər yaman,
“Kaş ki,biləydilər ölmüş Süleyman”
Cinlər sevindilər ,işləmək bitdi,
İnsana xidməti sonuna yetdi.
Möminlər eşidib qəmgin oldular,
Onların gözləri yaşla doldular.

**PEYĞƏMBƏRLƏR-səh-374.**
**2012-ci il,Kazan.**

## VƏSF EYLƏYƏRDİM

*2023-cü ilin ilk şeirini məhəbbətdən paylaşaq ki, 2023-cü il bizə,qucaq dolu məhəbbət bəxş etsin.*
*(Tələbəlik illərində yazdığım bir şeir)*

Mən şair olsaydım inan ki, əgər,
Xurmayı telini vəsf eyləyərdim.
Dəniz gözlərini alıb gözümə,
Bal-şəkər dilini vəsf eyləyərdim.

Kaman qaşlarına baxıb doyunca,
Gözüm usanmazdı ömrüm boyunca.
Sevən ürəyimə sevgin dolunca,
Ağ çiçək əlini vəsf eyləyərdim.

Ox tək kipriklərin sarılsa mənə,
İkimiz baş qoyub yaşıl çəmənə,
Dolanıb başına hey dönə-dönə,
O incə belini vəsf eyləyərdim.

Sonalar sonası, ey boyu bəstə!
Görsə camalını sağalar xəstə.
Düzüm saçlarına gül dəstə-dəstə,
Üzündə xəlini vəsf eyləyərdim.*

Alma yanaqıarın gülsə üzümə,
Tuşlanıb baxarsa gözün,gözümə,
Ömürlük özünü versən özümə,
Hər keçən ilini vəsf eyləyərdim.

Görən,hansı eldən gəldi bu ceyran?
Sübhan Abasbəyli olubdur heyran.
Qəddi-qamətindən bəzəndi seyran,*
Bilsəydim elini vəsf eyləyərdim.

***-xəlini-xalını**
***-seyranə-gəzinti**

**Bakı- 1976.**

Hörmətli dostumuz, dəyərli şair qardaşımız Sakit müəllimin bir neçə gün bundan əvvəl paylaşdığı təkbənd şeirini oxudum.

«Hər çiçəkdən bir ləçək»
İlhamım var a dostlar, sağlam ruhla yazıram,
Bəlkə mən yazdığımı, kimsə bir gün siləcək.
Yaltağa, məddahlara hər gün məzar qazıram.
Məni xalqa anladan din, imanım gələcək,
Qismət olsun hamıya hər çiçəkdən bir ləçək.

**S.Məmmədov**

Şair, bütün feyz əhlini qafiyəni saxlamaqla bir bənd yazmağa dəvət edir.Yazdım iki bənd, sonra ardı gəldi. Paylaşmaq istəməsəm də, yenə də, dostlarla bölüşməyi qərara aldım.

## «HƏR ÇİÇƏKDƏN BİR LƏÇƏK»

Bürüyüb Vətənimi göz yaşları, qəm-kədər,
Gözləyirik ilbəil, vaxt keçir hədər-hədər.
Silahlara qurşanaq, bizimlə olsun zəfər.
Gavurları məhv edib,Şuşanı azad edək,
Bayrağımı bəzəsin hər çiçəkdən bir ləçək.

Köçəndə o dünyaya, babalar hey soracaq,
-Hanı əmanətimiz?-Önümüzdə duracaq.
Hər bir Vətən daşına məhkəməsin quracaq.
Gözləməyək bir daha, hayları əzib, biçək,
Qarabağı bəzəsin hər çiçəkdən bir ləçək.

Məsgən olub haylara Azərbaycan torpağı,
Murdarlayıb ayağı düzənliyi, yaylağı.
Qan ağlayır ölkəmin hər daşı, hər yarpağı.
Təki Vətən sağ olsun, canımızdan gəl keçək,
Yolumuza düzülsün hər çiçəkdən bir ləçək.

Hər tərəfdən qonşular ilan kimi hey baxır,
Onların gözlərindən nifrət axır, şər axır.
Müstəqillik bayrağım ürəyini çox yaxır.
Biri "hay"a qaz verir, digəri hər cür kömək,
Məzarını bəzəsin qara daş, çınqıl, kəsək.

Bir millət iki qardaş-Azərbaycan,Türkiyə,
İki bayraq yan-yana, qoy eşq olsun birliyə.
Bizimlədir haqq yolu, addım atma geriyə.
Qələbə şərbətini Qarabağda biz içək,
Vətənimi bəzəsin hər çiçəkdən bir ləçək.

*** Hay-erməni**

Dünya şairlərincə başlatılan və dəyərli ustad şairimiz Fərhad Məmmədov tərəfindən benim də dəvət edildiyim # PeetMeNotLeave şiir marafonunda sekiz gün içində kəndi şiirlerimi,fotoqraflarımı və uyğun eserlerimi yinə bir şair arkadaşımı davet edərək paylaşacağım.

Bu gün birinci gün,birinci şiir və davet edecegim birinci şair və sənətkar Məlahət Behbud qızı eger kabul buyurursa marafona devam edecegim.

## QORXURAM

Qorxmuram ölümdən, ölüm haqq işi,
Ürəkdə ölümdən yaman qorxuram.
Allahdan gələnlər dönər Allaha,
Silinib getməkdən aman, qorxuram.

Yaşadim həyatda, gəzdim üzüağ,
Başım əyilmədi, dayandım zil dağ.
Oluram narahat, dəyşilib o çağ,
Gələn nəsillərçün hər an qorxuram.

Nadanlıq, cahillik verər qəm-kədər,
Yaltaqlıq, təkəbbür ondan da betər.
Uzaq ol pislikdən, durunuz, yetər!
Böhtan ayaq açır, oyan, qorxuram!

Batini şeytandir, xaric müsəlman,
Masqalanır üzü, saxlayır pünhan.
Vicdan siyasətə verilir qurban,
Alim danışanda yalan, qorxuram.

İnsanda dilsizlik sayılmaz nöqsan,
Dilliləri gördüm, hər sözü böhtan.
Korluluq gətirməz insana hicran,
Qəlbin korluqundan inan,qorxuram.

Sübhan Abəsbəyli, girmə günaha!
Əllini keçmısən, az qalıb daha.
Artıq bel bağlama bu gün, sabaha,
Qocalıq yetişib, dayan, qorxuram.

## VƏTƏNDƏN VƏTƏNƏ SALAM YETİRDİM
*Azərbaycan-Tatarstan*

*1*

Çətin bir məqamda, çətin bir anda,
Oldun millətinin, xalqın yanında.
Mintimer Şəymiyev,seçdiniz düz yol,
Sonra alqış aldın xalqından bol-bol.
Volqanın suları aramla axır,
Şair də kənardan izləyir, baxır.
Şaqraq ləpələri cumur sahilə,
Gözündən yaş tökür o, gilə-gilə.
Çox-çox zamanlarda "İtil"di adı,
Şirin bulaqlardan süzülür dadı.
Oka,Kama kimi çox böyük qollar,
Bəzənir çiçəyə keçdiyi yollar.*
Sahildə insanlar dönübdür selə,
Qaçışır, gəzişir belədən-belə.
Gəmilər üz-üzə, yan-yana durub,
Sanki özlərinə şəhərcik qurub.
Fit verir,ayrılır sahildən biri,
Yan alır sahilə həmən diğəri.
Yüzlərlə insanlar gəmidən düşür,
Üzlər gülümsəyir, gözlər görüşür.

Şəhərlə tanışlıq uzanıb gedir,
Hər turist özünə tədarük edir.
Əyləşib ağacın altında Sübhan,
İnci söz süzülür yazdığı zaman.
Bir anlıq xəyalım geriyə gedir,
Tatar tarixinə səyahət edir.
İdil- Bulqar idi adı bir zaman,*
Başının üstünü almış çən-duman.
Torpağı məhsuldar,"İtil"adlı çay,
Hər yerdən tacirlər gətirir tay-tay.
Çingizin nəslindən Uluq Məhəmməd,*
"İtil" sahilində ucaltdı dövlət.*(1438)
Kazan xanlığının əsasın qoydu,
Mənfur düşmənlərin gözlərin oydu.
Dövlətin şöhrəti, qüdrəti artdı,
Ən uzaq yerlərə əlləri çatdı.
Sərhəd genişləndi, çoxaldı mülkü,
Baxıb izləyirdi hiyləgər tülkü.
Axır ki ,dözmədi ,çaxmağın çaxdı,
Kazan-Türk dövlətin odlara yaxdı.
Xanlıq süqut etdi, edildi talan,
Keçdi əllərinə qənimət kalan.
Dəhşətli İvandan törəndi dəhşət,*
Volqa qan ağladı ,gözlərdə vəhşət.
Ölkə dağıdıldı, hər tərəf viran,
Qərq oldu sulara neçə qəhrəman.
Çatdl arzusuna dördüncü İvan,
Su yerinə axdı Kazanda al-qan.

-2-

Rus, Tatar birləşdi, oldular vahid,
Bir yerdə yaşadl, tarixdir şahid.
Keçdi yüzilliklər, dövran dəyişdi,
Çar Nikolay getdi, Sovet yetişdi,
Töküldü ağacdan saralmış yarpaq,
Yenə də canlandı ,dirçəldi torpaq.
On beş Respublika yarandı bir-bir,
Oldular savaşda, hər işdə əlbir.
Ukrayna, Belarus, Qırğız, Rus, Avar,
Azərbaycan ,Özbək, Türkümən,Tatar.*
Tacik, Gürcü, Çeçen, Asetin, Çuvaş
Başqırdlar, Qazaxlar açdılar savaş.*
Birləşib düşmənə sinə gərdilər,
Hitlerin nəşini yerə sərdilər.
Yetmiş illik dostluq saraldı, soldu,
İnsanların səbri daraldı,doldu.
Müstəqillik ruhu coşdu, qaynadı,
Laxladı Sovetlər, kökdən oynadı.
Lenin ideyası sarsıldı yaman,
Onun puçluğunu göstərdi zaman.
İstədi susdura coşan insanı,
Yeritdi ordunu, axıtdı qanı.
Dünən Rusiyanı qoruyan əsgər!
Bu gün, o əsgərə qıydı Moskva,
Gəldi qan içməyə Bakıda ova.*

Bakı küçələri büründü qana,
Yaralar vuruldu Azərbaycana.
Tanklar millətimi əzərək keçdi,
Körpəni, qocanı doğrayıb biçdi.
“Qara yanvar” belə qaralıb qaldı,
Yüzdən çox insanın canını aldı.
Axır ki, millətlər müstəqil oldu,
Sovetlər birliyi saralıb soldu.
Tatar milləti də, düz yolu seçdi,
Çətin mərhələni adlayıb keçdi.
Ruslarla durdular cinah-cinaha,
Əllərində Quran üzü sabaha.
Dostluğun binasın ucaltdı, qurdu,
Daha mətinləşdi, ayaqda durdu.
Ayrı- seçkilikdən oldular uzaq,
Bütün millətlərə açdılar qucaq.
Qurdu Respublika, irəli getdi,
Xalqının yolunda məqsədə yetdi.
Bütün Rus xalqıyla verdi əl-ələ,
Düşdü gözəlliyi dillərdən-dilə.

-3-

“Dostluq Evi” adlı tikdilər bina,
Yığdılar xalqları orda yan- yana.
Otuz beşdən çoxdur milli təşkilat,*
Ayrıldı otaqlar, şərait qat- qat.
Böyük iclas zalı, məktəb, müəllim,

Qoy unudulmasın Vətənim, dilim.
Muzey, kitabxana, milli geyimlər,
Müxtəlif ölçülər, gözəl biçimlər.
Milli rəqsləri öyrədən usta,
Öyrənir uşaqlar hey asta-asta.
Hər bir məsrəfləri ödəyir dövlət,
Təşkilat üstünə qoyulmur minnət.
Sədri işlədiyim Milli Təşkilat,*
Aktiv olmasıyla seçildi qat-qat.
Çox böyük işlərə ataraq imza,
Şair lazımdır ki, toplayıb yaza.
İlk dəfə Bakıdan kino gətirdik,(2013)
Yerli camaata onu yetirdik.*
Kazanın özündə dörd yüz on ağac,
Əkdik yol üstündə ,hərəsi bir tac.*
İndi yaşıllaşıb, olub göy çətir,
Xoş gəlir insana ,qoxuyur ətir.
Bir uşaq evinə duraraq hami,*(2013)
Diqqət mərkəzində oldu daimi.
Qırx-əlli nəfərlik bir uşaq evi,
Olduq biz onlarla bir ailəvi.
Atasız- anasız ,kimsəsiz uşaq,
Bayram tədbirinə çağrılır qonaq.
Hər cür köməyimiz dəyirdi ora,
Onlar düşmürdülər sıxıntı, dara.
Bayram günlərində düşərək yola,
Bizim uşaqlarla tutub qol-qola,
Rəqs edir, oynayır, şənlənir, gülür,

Nikbinlik yaranır, sıxıntı ölür.
“Xocalı Soyqırım”qanlı bir yaddaş,*
Qalmadı şəhərdə daş üstündə daş.
Xocalı boyandı al -qızıl qana,
Yaralar vuruldu Azərbaycana!
Şəhid olanların ruhuna xatir,(2013)
Kazan şəhərində baş tutdu tədbir.*
Aksiya keçirtdik, millət verdi qan,
Sevindi həkimlər, neçə xəstə can.
“Xocalı faktlarla”-Kazana gəldi,
Hayların Kazanda gözünü dəldi.
Kinoteatr “MİR”-oldu göz yaşı,(2014)
Baxıb görənlərin “ağardl başı”
İnsan vəhşiliyin görən hər insan,
Göz yaşı axıtdı, hey üzüldü can.
Kinoteatr “Mir” dolmuşdu tamam,
Gördüm daş ağlayır ,açılır yaram.
Saytlar,qəzetlər durmadan yazdı,
Kazanda “hay”ların qəbrini qazdı.
Minlərlə bukletlər şəhəri gəzdi,*
Düşmən təbliğatln məhv etdi,əzdi.
Üç, dörd il ard-arda kinonu verdik,
Vətən dərdlərini açıb göstərdik.
Yenə də ,danışım hər birinizə,
Sözlərim yayılsın ürəyinizə.
Dörd yüzdən yuxarı veteran əsgər,
Təşrif buyurdular, qonaq gəldilər.
Doqquzu may günü, o tarixi gün,(2013

Sayıtlar*, qəzetlər yazdı büsbütün.
Veteran əsgərlər danışdı,dindi,
Onların dilindən dostluq ələndi.
Xatırlandı döyüş, qələbə bu an,
Bakının neftini, neçə qəhrəman
Yazıçı, publisist dəyərli həkim,
Tukayla yaxın dost, siyasi xadim.
Kazan şəhərində gözəl bir olay,
Yanaşı küçələr, Nəriman, Tukay.
İyirmi səkkiz may, on üçüncü il,
O gözəl tədbiri alqışlayır dil.
Abidə ucaltdıq böyük insana,*(2013)
Xoş xəbər yayıldı Azərbaycana.
Tədbirə gəldilər yüzlərlə qonaq,
Rəşad ,Aşıq Əli-gəl tanış olaq,
Gözəl müğənnimiz Elnarə xanım,
Göndərdi onları Azərbaycanım.*
Tatar dövlətindən çox sayda insan,
Təbrik söylədilər onlar bu zaman.

-4-

Mirzə Kazım bəydən danışım sizə,*
Siz də qiymət verin əməyimizə.
Böyük bir tarixçi, şərqşanas alim,
Yazdığı əsərdə kök saldı dilim.*
Rəştdə, bu dünyaya göz açdı özü,
Dərbənd,Astarxanda göyərdi sözü.

Təsadüf, Kazana yetirdi onu,
Əbədi xarıcə bağlandı sonu.
Elmi əsərləri yazıldı, gəzdi,
Bağlı qapıları sındırıb, əzdi.
Dünyada ilk oldu şərqşünas alim,
Qırdı maneəni Türk-Tatar dilim.
Türk-Tatar dilinin birliyin dedi,
Eyni dil olmasın o, sübut etdi.
Ömrünün çox ili Kazanda keçdi,
Kazanı özünə o, Vətən seçdi.
Çar, göstəriş verdi, əmrini aldı,(1849)
Kazandan şimala köçünü saldı.
Sankt-Peterburq oldu ona iş yeri,
Orda başa vurdu qalan illəri.1970.
Kazanda abidə ucaltdıq ona,(2015)*
Şad xəbər yetişdi Azərbaycana.
Xeyli sayda qonaq yetirdi özün,
Açılış günləri söylədi sözün.
Səfir də,müavinin göndərdi bizə,
Alqışlar söyləndi əməyimizə.*

***

Məhərrəmlik ayı, müqəddəs Qurban,
Şanlı mövlud günü hər il, hər zaman.*
Müstəqillik günü, Novruz bayramı,
Burda tədbirlərə qatılır hamı.
İdman yarışları, gənclərlə görüş,

Diaspor işində, yenilik, dönüş.
Hər bir tələbəyə göstərir sayğı,
Diaspor tərəfdən diqqət və qayğı.
İki min on altı qurultay oldu,*
Xeyli nümayəndə Bakıya doldu.
İşturak edirdim Diaspor kimi,
Vətənin səsinə qatdım səsimi.
Prezident danışdı,məlumat verdi.
Hər sözü ürəyə ilham gətirdi.
Mən də işimizdən danışdım babat,
Görülən işlərdən verdim hesabat.
Prezident Kazana göndərdi salam,*
Ürəkdən süzülən isti bir kəlam.
Geriyə dönəndə sevgi gətirdim,
Vətəndən Vətənə salam yetirdim.
S.Abasbəyli(Əhədzadə)
Reqional İctimai Təşkilatı Azərbaycan
Milli-Mədəni Muxtariyyatın sabiq sədri.
Respublika Tatarstan.

***-3530 km uzunluğu.**
***-965-ci ildə Volqa,Kama çayları ətrafında yaranmışdı,-paytaxtı Bulqar şəhəri idi.1236-cı ildə Monqollar bu ölkənin varlığına son verir.**
***-Çingiz xan.**
***-4-cü İvan ,1552.**
***-Özübək**

***-və başqaları**
***-1990-yanvar**
***-Mili-Mədəni Muxtariyyat.**
***-Reqional İctimai Təşkilat Azərbaycan Milli-mədəni Muxtariyyat- ın sədri-dekabr**
**2012-dekabr 2016.**
***-Kazanda kinoTeatr "Mir"**
**«Возвращение в будущее»**
**«Намерения»**
**«Судба государя»**
**«40-я дверь»**
**«Аршин Мал Алан»**
**və başqaları.**
***-"Аэропорт"yolu üstündə,**
**Kazandan çıxanda.**
***-Kazanda bir yetim evi,Aqronomiçeskaya-14.-küçəsi 2013-.**
***_1992-25-26-fevral.**
***-2013-Kazanda 15-nöm.xəstəxanada 15-litirdən çox qan verdik.**
***-2014-də Kazanda "Xocalı Faktlarla" kinoları -kinoteatr "MİR"**
***-Xocalı həqiqətlərini əks etdirən məlumatlar.**
***-1941-45,"Davıl"restoranı,sponsor Gülhüseyn (Ruhu şad olsun). Tədbir bir neçə il davam etdirildi, Sonra Bəşirm.**
**keçirtdi.(Ruhu şad olsun)**
***-Saytlar**
***Rəşad Əliyev-Mədəniyyət naz.nüm.**
***-Məhəmməd Əli Mirzə Kazım bəy**

**1802-1870.Dünyada ilk şərqşünas,**
***"Türk-Tatar dilinin qramatikası."**
***-Kazan Dövlət Universiteti(Feder..**
***-Moskva-Polad Bülbüloğlu,Qüdsi**
**Osmanov.**
***-Peyğəmbərin.**
***-Dünya azərbaycan.4-cü qurultayı.**
***-Cənab İlham Əliyev,məndən Tatarstan azərbaycanlıla-rına salam göndərdi.**

## KƏDƏR TARİXİMİZ OLDU, GÜLÜSTAN!

«Arazı ayırdılar,
Lil ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar»

1

Araz nalə çəkdi, hayqırdı o gün,
Göy üzü tutuldu, göz yaşı tökdü.
Quşlar oxumurdu, baxırdı küsgün,
Kəpəzim, Savalan boynunu bükdü.
Ağ vərəq üstündə böləndü bir can,
Bir xalqı ikiyə böldü ,"Gülüstan»

2

Müdhiş bir sazişin ağırlığından,
Əyildi belimiz hey zaman-zaman.
İşğalçı,ölkəmdə sürərək dövran,
Söndü Təbrizimin gür çıraqları.
Zeybə-nin suları ağladı bu an,*
Göz yaşı axıtdı, susdu,"Gülüstan»

3
Ağ vərəq üstündə atılan imza,
Əsarət zəncirin qoluma vurdu.
İmzalar zəhər tək axdı boğaza,
Yandırdı içimi, boynumu burdu.
Ayaqlar altında kəsdilər»qurban»
Əsdi qara yellər,dondu "Gülüstan"
4
Masalar üstündə bölündü elim,
Bölündü tarixim, bölündü dilim.
Arazdan o tayda qaldı bir əlim,
Qardaşı qardaşdan ayrı saldılar.
Əyildim, əzildim, oldum yarımcan,
Vurdu ürəyimə damğa,»Gülüstan»
5
Sızlayan biz olduq, sevinən onlar,
Gülüş çələnginə bürünən onlar.
Qalib görkəmində öyünən onlar,
Faciəm üstündə qurdular büsat.
Kədər çələnginə bələndi hər yan,
Vətən tariximi böldü, «Gülüstan».
6
Qardaş ayrı düşdü, büküldü dizim,
Gözü yaşlı qaldı Bakım, Təbrizim.
O taylı, bu taylı bir Vətən, bizim,
Ayrılıq yamandır, yamandır qardaş.
Başımın üstündə qara bir duman,
Vurdu ürəyimə damğa,»Gülüstan»

7
«Gülüstan»sazişin sanaraq, bədnam,
«Payıma az düşdü» çəkdilər əncam.
Yenə hökümdarlar verdi sərəncam,
Yenə göz yaşına bəzəndi Vətən,
Türkmənçay sazişi yazılan zaman,
İlişib boğazda qaldı,»Gülüstan»
8
İkiyə bölündük, haray ay haray!
Araz sərhəd oldu, ayrıldı o tay.
Boğuldu içimdə bəzəkli saray,
Dirəklər vuruldu sinəmin üstə.
İkiyüz ildən çox yandırır hicran,
Kədər tariximi yazdı, «Gülüstan»
9
Həris gözləriylə bir də baxdılar,
Vətən torpağına həmən axdılar.
Bölünmüş ürəyə bayraq taxdılar,
Bir qardaş o üzdə ,biri bu üzdə,
Dağların o üzü, əllərim çatan,
Bir xalqı ikiyə böldü,»Gülüstan».
10
Hər iki sazişdən keçmişdi gün ,ay,
Sürüldü evimə yüz minlərlə “hay»*
Sonrakı illərdə xeyli artdı say,
Xalqımın əfqanı göyə ucaldı.
Axdı su yerinə Vətənimdə qan,
Kədər tariximi yazdı, «Gülüstan»

11
İşğalçı ölkələr məqsədə çatdı,
Özgənin torpağın özünə qatdı.
Dartdılar “şikarı” hərə bir yana,
Yaralar vurdular Azərbaycana.
Ayrılıq mahnısı olaraq dastan,
Bir xalqı ikiyə böldü,»Gülüstan».
12
Böldülər bir xalqı rahat, ahəstə,
Sürüldü evimə»hay»dəstə-dəstə.
Yığıldı Vətəndə yadlar üst-üstə,
Gözlərim yaş süzdü hey için-için,
Sancdı ürəyimi hər yerdən ilan,
Kədər tariximiz oldu,»Gülüstan»
13
Farslarla döyüşü gətirdi zəfər,*
Sonra Türkiyəyə etdilər «səfər»*
Qardaş ölkəmizi aldı qəm-kədər,
Ruslar kömək əlin uzatdı «yan»a,
Ədirnə sülhüylə qaynadı tiyan,*
Töküldü içinə ,yandı müsəlman,
Kədər tarixini yazdı,»Gülüstan».
14
İranla sazişdən keçən hər saat,*
Dəyişdi»hay»larda şərait, həyat.
Hər yerdən axışdı hey üzü bəri,
Artdı xalqlarımın ağır dərd-səri.
Başlandı Vətəndə oğurluq, talan,
Kədər tarixini yazdı, «Gülüstan».

15
Deyirlər, Pyotur etmiş vəsiyyət,*
«Gərək Avropaya çata mülkiyyət.
Sərhəd məkanımız ola Hindistan,
Sünnilər ,Şiələr olsunlar düşman.
Tutulan torpaqda yaşasın rus,»yan»,
Gərək dost olmaya İranla Osman"*
16
Yerli hakimlərdən»Çar»a yazhayaz,*
Satqınlıq «yan»lara verir imtiyaz.
«Gülüstan»dan ötən on yeddi il, ay,
Sürüldü yurduma ikiyüz min «hay».
Doldu erməniylə Göyçə ,İrəvan,
Zəngəzur ,Qarabağ, Şəki, Naxçıvan.
Kədər tariximi yazdı, «Gülüstan»
17
«Arxalı köpəklər hürər, qurd basar»
Qudurub saldırar Qartal-a da, Sar,
Qəddarın axırı sonda qan qusar,
Məzlumun naləsin eşidər Allah.
Şərəfin, mənliyin, əxlaqın satan,
Tarixin önündə verər imtahan.
18
Min doqquzyüz beşin şaxtalı ayı,
Çatdı dördyüz minə»hay»ların sayı.
Zəngəzur, Naxçıvan, Bakı, Qarabağ,
İrəvan ,Gəncəyə çəkdilər min dağ.
Soyqrım törətdi o, mənfur düşman,
Gətirdi qəm-kədər, yaxdı,»Gülüstan».

19
Keçdi faciədən, keçdi on üç il,*
Yenə hiylə torun hörərək qatil,
Erməni qüvvələr Bakıya doldu,
Xalqımın bağçası saraldı ,soldu.
Qanlı qırğınlara verərək fərman,
Yurdumu atəşə tutdu Şaumyan,
Kədər tariximi yazdı,"Gülüstan"
20
Martın otuzuydu, hava da təmiz,*
Hiylədən xəbərsiz saf millətimiz.
Atəşə tutulduq, qan döndü çaya,
Lenin də şimaldan söz verir»hay»a,
Güllələndi əlli mindən çox insan,
Qana qəltan olan, can Azərbaycan!
21
Şərqdə göy gurladı, bir ulduz doğdu,
Düşmənin ürəyin, nəfəsin boğdu.
Müstəqil bayrağım ucaldı göyə,
Xoş xəbər yayıldı şəhərə, köyə.
Vətən torpaqlarım oldu çıraqban,
Tarixlər bəzədi, Can Azərbaycan!
22
Xəbis qonşulardan həzər ay həzər,
Kin-küdrət içini dolaşar, gəzər.
Gözləri pislikdən çələng toxuyar,
Atdığı hər addım çirkab qoxuyar.
Saxlar qəzəbini, kinini pünhan,
Allahım, uzaq et belə qonşudan.

23
Şaumyan, Bakıdan Leninə yazır,
Müstəqil ölkəmə quyular qazır.
«Aman, Türkiyəni qoymayın gələ,
Bütün bənd-bərəni keçirdin ələ.»
Lenin, Gürcüstana vəd verir dolu,*
Təki ,Türkiyənin kəsilsin yolu.
24
Hər bir təhlükəni alaraq gözə,
Osmanlı ordusu yetişdi bizə.
Milli qüvvələrlə İslam ordusu,
Bakı azad oldu, keçdi qorxusu.
Gəncədən Bakıya köçdü hökumət,
Təhlükə sovuşdu, sevindi ümmət.
25
Ucaldı bayrağım, gur işıq saçdı,
Keçdiyi yollarda qızıl gül açdı.
Sülhün, həmrəyliyin ardınca qaçdı.
Hər bir əməlindən ucaldı Vətən,
Yolunda özünü verərək qurban.
Neçə Türk əsgəri, neçə qəhrəman.
26
Düşmənin nəfəsin kəsirdi hiddət,
Nifrətlə süzürdü gözündə şiddət,
Yanıb tökülürdü görəndə vəhdət.
Müstəqil Vətənim, deşirdi gözün,
Süzülür içindən, sözündən böhtan,
Bizə qəm gətirdi, kədər, «Gülüstan».

27

Artır Vətənimdə hər an təhlükə,
Çətinlik önündə dayanır ölkə.
Yağı düşmənlərlə qalır üz-üzə,
Tuşlanır üzümə, köksümə nizə.
İrəvan «hədiyyə»edildi, aman!
"Gavur"u evimə saldı,"Gülüstan».

28

Zəngəzurla Göyçə, Dilican getdi,
Şərur-Dərələyəz gözümdən itdi.
Riyakar qonşular arzuya yetdi,
Bir-bir Oğuz yurdum"hay»a verildi.
Mülküm qarət oldu, olmadı həyan,
Bizə qəm gətirdi, kədər, "Gülüstan».

29

Vətənim bələndi al qızıl qana.
Yaralar vuruldu Azərbaycana.
Alova büründü hey Odlar yurdu,
«Gavur»lar tələsik xaniman qurdu.
Dostları şadlandı ,oldu pasiban,
Kaş ki, olmayaydı əzəl,"Gülüstan».

30

Qərbi Azərbaycan verildi, bitdi.
Bir müddət itlərin hürüşü itdi.
Qorbaçov orada gəldi»mərkəz»ə,
Tülkülər yenidən girdilər gözə.
«Qarabağ da bizim»etdilər»üsyan»
Bizə qəm gətirdi,kədər,"Gülüstan».

31
Moskva önündə ağladı zar-zar,
Vurdu baş-gözünə, etdi ahuzar.
Şərait yaratdı, gözlərin yumdu,
Riyakar erməni üstümə cumdu.
İkiyüz əlli min qovuldu yurddan,
Bizləri möhnətə saldı,»Gülüstan».
32
Moskva işindən qovuldu Öndər,*
Aldı caynağına bizi qəm-kədər.
Yağı düşmənlərin açıldı yolu,
Yağdı başımıza daş-kəsək,dolu.
Xocalım dağıldı ,edildi viran,
Bizə qəm gətirdi,kədər, “Gülüstan».
33
Sonra da verildi Laçınım, Şuşam,
Xocavənd, Kəlbəcər, Xocalım, Ağdam.
Cəbrayıl, Fizulim, Qubadlım yandı,
Gözəl Zəngilanım qana boyandı.
Tamam Qarabağım olaraq biryan,
Faciəm sən oldun, sən ey”Gülüstan»
34
Otuz il Qarabağ edildi işğal,
Otuz il utandıq, biz olduq bihal.
Ağır məğlubiyyət etdi bizi lal,
İnlədi Sübhan da ,əlində Quran,
Kədər tariximiz oldu ,»Gülüstan».

35
Budur, qoç igidlər qalxdı ayağa,
Ordumuz oxşayır sanki bir dağa.
İt kimi qovuldu o, mənfur dığa.
Qardaşlar verdilər çiyin-çiyinə,
Qovuşdu Qarabağ ,qırıldı zindan,
Vətən xilas oldu vətənsiz “yan”dan.
36
Alnımızda qara olan bir ləkə,
Əydi qəddimizi hey zaman-zaman.
Ağır qəm yükünü biz şəkə-çəkə,
Güldü üzümüzə hiyləgər düşman.
İnşəallah ,qurtuldu ,o Cənnətməkan,
Gözlərimiz aydın, can Azərbaycan!
37
Çaldı Qarabağda Ordumuz zəfər,
Qalan torpaqlara edəcək səfər.
Zəngəzur, Göyçəmdə qalmayıb təpər,
Şərur-Dərələyəz, Dilican betər.
Ələsgərin qəbri olubdur yeksan,
Bir xalqı ikiyə böldü, «Gülüstan».
38
Ey kədər tarixim ,Gülüstan kəndi!
Böldün sən xalqımı, əyildi qəddi.
Çəkdin ürəyimə tikandan səddi.
Qardaşı ,qardaşa qoyaraq həsrət,
Nə vaxt yollarımdan itəcək tikan?
Əzdi bir milləti ,böldü “Gülüstan»

39
Təbriz ağı dedi, göz yaşı tökdü,
Quzey, Quzey deyib diz üstə çökdü.
O tay da, bu tay da boynunu bükdü,
Bakı qan ağladı, haray, ay haray!
Sən ey ayrılığa qol qoyan, utan!
Kədər tariximiz oldu, «Gülüstan».
40
Arazı ayırdılar, o gündən bəri,
Vurdular sinəmə iti xəncəri.
İkiyüz illərdir ,gözlərimdə yaş,
Əllərim uzanıb, o taya qardaş!
Hanı qarşılayan, əlimdən tutan?!
Oyan ,aç gözünü, bitsin»Gülüstan!»
Güneyli, quzeylı, can Azərvaycan!

***-Gülüstan kəndində çay**
***-»hay»-erməni**
*** 1804-1813 Rus-İran müharibəsi.**
***Osmanlı döv. adlanırdı.**
***1826-1829-Rus-Türk müh.**
*** 1813-Gülüstan sazişi**
*** 1-ci Pyotur**
***-Osmanlı döv.**
***Çar-İmperator**
***1905-1906**
***-1918 ci il.**
***-Gürcüstana muxtariyyat vəd olunur.**
***_Heydər Əliyev .**

## KÖRPƏLƏR KİMSƏSİZ QALMAYAYDI, KAŞ

1

Danışım sizlərə olmuş əhvalat,
Diaspora sədri işlədiyim vaxt.
Bir yetimlər evi, qırx, əlli uşaq,
Olmuşduq onlara mehriban,dayaq.
Bayram tədbirləri onlarsız keçməz,
Gözümüz önündən,dildən silinməz.
Hər ay uşaqlara biz çəkərək baş,
Olmuşduq onlarla mehriban yoldaş.
Hər cür ehtiyacı alaraq gözə,
Gəlir körpələrlə tez-tez üz-üzə...
«Dostluq Evi»bizə isti bir ocaq,*
Tatarlar açmışdı hamıya qucaq.
Bizim körpələrlə ,o uşaq evi,
Olmuşdu ən yaxın, həm ailəvi...
Növbəti bir ayda etdik məsləhət,
Yenə uşaq evin edək ziyarət.
Müəllimlər verdilər orda bir xəbər:
«Yeni uşaq gəldi bu gün,bu səhər.»
Səkkiz, on yaşları, hər iki bacı,
Gözləri çox məsum, həyatı acı.
Tutmuşdu əl-ələ, dilli- dilavər,
Ürəyim ağladı, gözlərim kədər.
Nədir körpələrin axı günahı?
Vaxt gələr tutacaq onların ahı.
Ayrıldıq oradan, arxada gözüm,
Kədər pərdəsiylə örtülmüş üzüm.

Narahat edirdi içimdə duyğu,
Saxladıq maşını,verərək sorğu:
-Mümkünsə,kimlərdir o iki uşaq?
Atadan,anadan,xəbərdar olaq.
Zəng etdilər mənə heç yubanmadan,
«Millət,Azərbaycan»-dedilər haman...
Görüşdən yeddi gün keçərək bir vaxt,
Gəldi iş yerimə bir qadın ,bivaxt.
Yaşlı Rus qadındı, gözlərində qəm,
Əlindən məktubu uzatd bu dəm.
Danışdı özündən o, yana- yana,
Kədər çələnginə bürünmüş, ana:
-Qızım ərə getdi, qurdu ailə,
Axdı göz yaşlarım hey gilə-gilə.
Azərbaycanlıydı qızımın əri.
Sevinclə keçirdi həyat günləri.
Nəvələrim oldu, iki qız uşaq,
Özümdən kənara qoymurdum uzaq.
Yeznəmdən razıydım,gözəl bir insan,
İşgüzar, təmizkar, sadə, mehriban...
Qızım ki, içkiyə qurşandı, dəhşət,
Evimdə yarandı xeyli söz-söhbət.
Ailə dağıldı, ər evdən getdi,
Qızımın həyatı təmamən bitdi.
Dözmədi içkiyə, gedərək ata,
İki körpə nəvəm qaldı ortada.
Qızım ərə getdi, ikinci həyat,
Çox dedim qızıma:-İçkini gəl at!
İçki əziz oldu, övladları yad,
Həyatımız oldu zəhərli, bərbad.

Bir gün o, içgili, vuraraq, ərin,
Öldürdü yazığı, günahsız birin.
Uşaqları qaldı, özüm də, yaman,*
Qızım da, özünə seçərək zindan.
Sonra xəstə yatdım, nəvələr qaldı,
Dövlət körpələri himayə aldı.
Atanı axtarın, zəng edin ona,
Aparsın qızları, Azərbaycana!
Gözləri ağlayır, titrəyir qadın,
Yazdı yeznəsinin, qızların adın.
Yetimlər evinin ünvanın verdi,
Başından aşırdı ananın dərdi.
Gedəndə söylədim şad xəbər ona:
-O iki nəvənlə tanışıq, ana!
Onların olduğu, o uşaq evi,
Olmuşuq onlarla biz ailəvi.
Eşitdi sözləri, bənizi güldü,
Ananın gözündən sevinc süzüldü.
Yola saldım onu, gözlərimdə yaş,
Üzülməyən ürək gərək ola daş.

2-ci hissə

Kazan şəhərində elərdə «çıraq»
Axtardıq çox yerı,gəlmədi soraq.
Sabirabad idi doğulan məkan,
İşdən hali oldu həm ,Azərbaycan.
Yaxın bir dostumuz, Cəfərov Asəf,
Xeyli zəhmət çəkdi, açıldı kələf.*
Nazimlə əlaqə saxlayıb, haman,**

Zəng edib danışdıq onla bu zaman.
Vəziyyət haqqında verdik məlumat,
Eşidib öyrəndi, ata qaldı mat.
Danışır, ağlayir, titrəyir səsi,
Ağlatdı yanımda olan hər kəsi.
Dedi:-Ailəm var, üç körpə uşaq,
Fəhlə işləyirəm, çətin dolanmaq.
Cavandım, Kazanda qurdum ailə,
Bilmədim başıma belə iş gələ.
Burda ailəmə nə deyim durum?
Qarışıq işimi mən necə qurum?...
Nazim danışırdı, bilmirdi susmaq,
Gözlərim önündən hey qalaq-qalaq,
Nazim kimi yüzlər, minlər, on minlər,
Atılmış körpələr sızlayar, inlər.
Gah Azərbaycanda atılır uşaq,
Ata Rusiyada, övladdan uzaq.
Yada ki, əksinə, hər iki halda,
Körpələrin gözü hey qalır yolda...
Dedim:-İşimizdir,edək xəbərdar,
Körpə balaların qalıbdır naçar.
Məhkəmə işində edərik kömək,
Lazımi dəstəyi biz sizə verək.
Ancaq ,körpələri özünüzlə siz,
Aparın qalmasın burda kimsəsiz!
Dedi:-Hamınıza çox-çox təşəkkür,
Körpələr yaşayır Allaha şükür...
Ötdü bu söhbətdən qısa bir müddət,
Zəng gəldi rayondan, Nazimdi əlbət.
Salam verib dedi:-Gəlirəm ora,

Gedib baş çəkərik biz uşaqlara.
-Gələndə bizləri xəbərdar edin!
İşləriniz haqda məlumat verin!
Deyə, biz bir daha etdik xəbərdar,
Hamımız şad olduq,sevindi dostlar.
...Diaspora işi qurtarmaq bilməz,
İnsanların dərdi bitməz, tükənməz,
İclaslar, tədbirlər, ağlayan gözlər,
Gəlib kömək uman pərişan üzlər.
Ya olduğun ölkə, yada ki, Vətən,
Yardım istəmirik heç bir ölkədən.
İmkanlı insanlar edərək kömək,
Vətən oğulları sərf edir əmək...
Günlərin birində, körpə qızcığaz,
Səsində, sözündə titrəyiş bir az:
-Sizə minnətdarıq, gəldi atamız,
Nə ola gələydi həm də, anamız.
Şəlalə tək şaqraq ,çağlayır səsi,
Danıçıb gülürdü həm əhatəsi.
Nazim, telefonu alaraq ondan,
O da, çox teşekkür edərək candan.
Dedim:-Sevindrdiz, yenə zəng edin,
Vəziyyət barədə məlumat verin.
Nə kömək lazım sa edərik sənə,
Mütləq körpələri apar Vətənə...
Bir neçə gün ötdü, gələrək zaman,
Təşkilat heyəti toplandı ,haman.***
-Nazim çıxıb getmiş bizdən xəbərsiz,
Ancaq qızlarıyla görüşmüş səssiz.
On bir nəfər heyət, başımız duman,

Görən niyə belə etmiş ,o insan?
Nömrəsini yığdım, zəng etdim ona,
Danışdı mənimlə o, yana-yana:
-Axı mən onları hara aparım?
Vətənimdə vardır üç uşaqlarım.
Ailəm bilərsə məndən boşanar,
Həyatım dağılar, yenə kül olar...
Cavabım olmadı, qurudu sözüm,
Ürəyim ağrıdı, yandı üz- gözüm.
Yarımçıq toplantı, üzlərdə kədər,
Qayıtdıq geriyə, ağladı gözlər.
...İdarə heyəti, toplandıq yenə,
Yolumuzu saldıq uşaq evinə.
Tədarük olunan bir xeyli sovqat,
Hədiyyə olundu, yüksəldi ovqat.
İki qiz uşağı dəymədi gözə,
Narahat olaraq baxdıq göz-gözə.
Direktor görərək bizdəki halı,
Qəmli-qəmli baxdı bizə mənalı:
-Ataları gəldi, görüşüb getdi,
Doğma övladlardan imtina etdi.
Uşaqlar verildi bir ailəyə,
Hamımız ağladıq belə zərbəyə.
Həmən ailədə yoxdur həm övlad,
Gördülər qızları, oldular çox şad.
Dilli-dilavərli iki qızcığaz,
Kaş ki, həyatları olaydı gülyaz.
Hamı qəmgin oldu, ürək oldu qan,
Qayıtdıq geriyə,gözlər pərişan.

SON

Ey əziz Allahım, sənsən yaradan,
Sənsən aləmlərdə vahid hökmüran.
Sən doğulmamısan, varlığın əzəl,
Ancaq yaradırsan qüdrətdən gözəl.
Ən gizli sirlərə hakimsən özün,
Hər şeyə qadirdir tək bircə sözün.
Dünyada ən gizli sirlər ki, vardır,
Mənası Rəbbimə həm aşikardır.
Günahsızam demək özü günahdır,
Günahsız,nöqsansız yalnız Allahdır.
Günahlar içində boğulan insan!
Səhvindən çəkməsin kimsələr ziyan!
Düşünmədən bəzən veririk qərar,
Sonra həyatımız ağlayır zar-zar.
Bizim özümüzə aid sə günah,
Bağışlayar onu mehriban Allah.
Kimsənin haqqına giririksə biz,
Allah bağışlamaz, keçməsə bais.
Kaş ki, atılmaya körpələr heç vaxt,
Uca Allah yaza bərəkətli baxt.

***-xəstə**
***Kələf-düyün**
**** Ad şərtidir.**
*****Tatarstan Res.Reqional İctimai Təşkilatı Azərbaycan Milli-Mədəni Muxtariyyatın İdarə Heyəti.**
*****Hadisə -2016 cı ildə baş verib**

## O, SON ANDA YETİŞDİ

1

Qırx ilin söhbəti ,çox keçdi zaman,
Sizlərə danışım, qalmasın pünhan.
Ey əziz oxucum, vaxt tapsan oxu,
Xoş sözdən şairə bir çələng toxu.
Zərli söz xəzinəm açılsın, dolsun,
Uca Pərvərdigar sizinlə olsun...
Sovet dövlətinin qudurğan vaxtı,
Hələ parlayırdl “qızıldan taxtı”.
Dövlət adamları, əldə “qılıncı”,
İncidir kütləni, edir narıncı.*
Ev tikmək çox çətin, ağırdn ağır,
Kasıblıq da göydən elə hey yağır.
Yayın əvvəl ayı, günəş od tökür,
İsti şüdd eləyir, torpağı sökür.
Bir neçə dost, tanış məsləhət etdik,
Xeyli məhsul yığıb Vətəndən getdik.
Bir Rus şəhərində salaraq məsgən,
Bazara çıxartdıq məhsulu erkən.
Üç aydan yuxarı tər-qana batdıq,
Gecəni gündüzə, gecəyə qatdıq.
Evə getmək vaxtı yetişdi, gəldi,
Vətənin həsrəti qəlbimi dəldi.
Məsləhət edərək bir neçə yoldaş,
Alaq ailəyə burda əyin-baş.

Həmçinin satmağa siqaret aldıq,
Hər bir işimizi qaydaya saldıq.
Gəldik ayreporta, hava da sərin,
Təbiət gözəldir bu gözəl yerin.
Siqaret qutular büküldü tamam,
Rahat nəfəs aldıq hey aram-aram.
Yükümüz bağaja verildi haman,
Sıxıntı ürəkdən getdi bu zaman.
Hava limanına, Bakıya endik,
Vətən torpağını görüb sevindik.
Hərə öz yükünü bağajdan aldı,
Yükünün yanında dayanıb qaldı.
Birlikdə hamımız verərək qərar,
İkarus avtobus daha xoş olar.
Bakıdan rayona düşərək yola,
"Nə ola yolumuz xətərsiz ola",
deyərək, əl açdıq uca Allaha,
Dualar oxuduq ona bir daha.
Dörd saatlıq yolu axır ki, gəldik,
Yolun ürəyinu, gözünü dəldik.

2

Bambaşl kəndindən dönərək sağa,
Gördük ki ,dayanıb milsoner "ağa"*
"Vilis"dən düşərək onlar bu zaman,*
Avtobusun yolun kəsdilər haman.
"Saxla" işarəsin dərhal verdilər,
Avtobus önündə sinə gərdilər.

“Sürücü, maşını saxlama”-dedim,
Səsimi qaldırdım, çox xahiş etdim.
Avtobus sürətlə şığıdı yola,
Sürürdü gah sağa,gah da ki,sola.
Milis maşını da, arxadan gəlir,
Aramsız siqnalı baş-beyin dəlir.
Getdikcə azalır kəndə məsafə,
Milis də çalışır çatsın hədəfə.
Avtobus vilisə yol vermir keçsin,
“Zəhərli qılıncla bizləri biçsin”
Bir anda dəyişdi gərdişi-dövran,
Çıxdı avtobusun önünə heyvan.
Sürücü anında əyləci vurdu,
Avtobus yerində dayanıb durdu.
Milisin maşını keçdi qabağa,
Hamımız tələsik durduq ayağa.
Bir milis nəfəri, bir mülki adam,
Qalxdılar salona iki şəxs,müdam.
Sürücü tərəfə döndülər dərhal,
Qorxudan sürücü olmuşdu bihal.
Vəsiqə, sənədlər alındı ondan,
Sanki xəstə idi əzəldən, çoxdan.
Mülki şəxs özünü tez təqdim etdi:
“Abıyev Zəfərəm”-deyə o, dindi.
“Milis şöbəsinin baş əməkdaşı,
Avtobusla birgə siz beş yoldaşı,
Mərkəzə, şöbəyə aparaq gərək,
Lazımi qərarı biz orda verək.”

3

Dil tökdük onlara, çox xahiş etdik:
-Əgər aparsanız biz tamam bitdik.
Siqaret gətirdik bir yerdən sataq,
Bəlkə kasıblığın daşını ataq,
Təzə evlənmişik, ev tikmək gərək,
Qazanaq bizlər də, bir tikə çörək.
Xeyli vaxt işlədik, pulumuz burda,
Malımlz gedərsə qalarıq darda.
Biz öz aramızda yığdıq pul-para,
Uzatdıq bükülü pulu onlara.
Milis işçiləri "Yox"-deyib durdu,
Pulu götürmədi, əlimdən"vurdu."
Əlacım kəsildi, dinmədim daha,
Ümidim qalırdı gözəl Allaha.
Gözlərim yol çəkdi, fikir apardı,
Xəyal aləmindən bir səs ayırdı.
Beş yoldaşdan biri yavaşca dindi:
-Vəziyyət çox çətin, nə edək indi?
Bir anda gözümə işıltı gəldı,
Ümid qığılcımı sinəmi dəldi.
Haşiyə çıxıram burda a qardaş,
Xatırladım sizə göyərsin yaddaş.
Banbaşı kəndində bir seyyid yaşar,
Şöhrəti, izzəti el-el dolaşar.
Onun barəsində xoş sözlər gəzər,
Sözü- söhbətləri ürəklər bəzər.

Böyük də, uşaq da qalxar ayağa,
Məclisə gələndə Mir Heydər Ağa.*
Uşaqla uşaqdı, böyüklə böyük,
Görsə dayanıbdır bir boynu bükük,
Köməklik göstərər, tutar əlindən,
Xoş sözlər süzülər onun dilindən.
Elin ağsaqqalı, ağır bir seyyid,
El-oba ,Masallı sözümə şahid.
Təsadüfmü deyim,ya bir möcüzə,
İkarus avtobus durmuş üz-üzə,
Seyyidin evinə dayanmış yaxın,
Uca Yaradanın hökmünə baxın.
Dostlarımdan biri Seyyidə yeznə,
Sevincək üzümü tutdum üzünə:
-Bəxtiyar,tez yüyür Ağanı çağır!
Deynən ki, işimiz ağırdan ağır.
Bəxtiyar tələsik salondan çıxdı,
Seyyidin evinə su kimi axdı.

4

Bir azdan yetişdi Mir Heydər Ağa,
Tez Zəfər Abıyev çıxdı qabağa.
Seyyidlə görüşdü,hal-əhval tutdu,
Sanki onlar bizi tamam "unutdu".
Hal-əhvaldan sonra Seyyid ərz etdi:
Hər sözü beynimdə zirvəyə yetdi.
-Kürəkən də burda, yox idi çoxdan,
Uca Pərvərdigar yetirdi yoxdan".

Dedi:-Yeznə gəlsin, öz yükün alsın,
Qalan dörd nəfərsə yerində qalsın.
Seyyid:-Xahişimdir qoy hamı getsin,
Üzləri sevinsin, evinə yetsin.
Milis əməkdaşı Abıyev Zəfər,
"Baş üstə"o,dedi, göstərdi hünər.
Avtobusdan düşüb "Vilis"ə mindi,
Daha nə danışdı, nə də ki, dindi.
Milis uzaqlaşdı, mən isə dondum,
Xəyalən babamın sözünə qondum.
"Seyyidin, yaşlının yolunu saxla,
Onları yada sal, evində yoxla".
Mala, pul-paraya salmadı tamah,
Seyyidi eşitdi, ucaltsın Allah.
Bir el ağsaqqalın məyus etmədi,
Vəzifə dalınca, o şəxs getmədi.
Ağsaqqal sözünü salmadı yerə,
"Mərhəba"-söyləyir eşidən hərə.
O böyük şəxsiyyət,Mirheydər Ağa,
Bizi xilas etdi, ucaltdı dağa.
Seyyidin əlindən, üzündən öpdük,
Cəddinin önündə diz üstə çökdük.
Avtobusa mindik, sevinə-gülə,
Bizi gözləyirdi evdə ailə.
Həmd olsun Allaha, qapını açdı,
Göydən nur çilədi, bərəkət saçdı.
Bir kimsə olmadı bizi əyliyə,*
Çatdıq Yeyənkəndə,Abasbəyliyə.

Eşidib bilənlər "Əhsən"-söylədi,
Seyyidə, Zəfərə dua eylədi.

Son

Ey oğul,ağsaqqal,seyyidi dinlə,
Uca Yaradan da, olar səninlə.
Sənə əl açanın yanından ötmə,
Arxada gizlənib gözündən itmə.
Halallıqla qazan,harama baxma,
Pislikdən uzaq ol, pisliyə axma.
Allaha and içmə, danışma yalan,
Yalandır insanı bəlaya salan.
Oxut övladını, savad ver,savad,
Qoyma övladını olsun bisavad.
Oxu kitabları sən varaq-varaq,
Kitabdır insana qalxanla yaraq.
Vətəni unutma, Vətən şirin can,
Vətənin naminə tökülər al-qan.
Vətən ürəyimiz ,Vətən,qibləgah,
Ucalsın bayrağım zirvəyə, Allah.
Qurani-Kərimi unutma bir an,
Bağlı qapıları açar hər zaman.
Ey əziz oxucum, dinlədin məni,
Allahım ucaltsın, göyərtsin səni.
Sübhan Abasbəyli, sizləri yazdı,
Deməyin qocalıb, kişi dayazdı.
Uzaq əhvalatdı,çox keçib zaman,

Başımın üstünü alıb çən-duman.
İnan ki, sabaha ümidim yoxdur,
Hələ arzularım, diləyim çoxdur.
Allah kömək etsə şairə əgər,
Yazar neçə-neçə, yaradar əsər.

***-narıncı-xəstə**
***-"Vilis",Sovetlər vaxtı qiymətli maşın idi və çox vaxt dövlət adamları bu maşınla gəzərdi.**
***-Milis-Polis Sovet vaxtı Milis deyilirdi**
***-Mir Heydər Ağaya Allah rəhmət eləsin,nur içində yatsın.**
***-əyləyə-dayandırmaq**

**26.12.2022.**

## YALAN AYAQ AÇIR, GƏZIR DÜNYANI

Hiylə ,riyakarlıq girib qol-qola,
Süzür ölkləri gözündə dəhşət.
Xəyanət toxumun əkirlər yola,
İblisin dostları sarıb hər yanı,
Yalan ayaq açır ,gəzir dünyanı.

Yoxdur ürəklərdə inam, etibar,
Üzlərində həya, abır,nismət, ar,
Fikirləri qara, düşüncəsi dar,
Sözü düz ilqarlı indi bes hanı?
Yalan ayaq açır, gəzir dünyanı.

Kimə göstərirsən ülfət, ehtiram,
Kələylə bəzənir kəsdiyi kəlam.
Yerişi, duruşu qərəzkar, haram,
Zamanın Sahibi qurar divanı,
Yalan ayaq açir ,gezir dünyani.

Gəlib pul istəyir, borc alıb gedir,
Deyir,bqaytararam, and-aman edir.
Vaxt tamam olanda yox olur, itir,
Borc verən axtarır, tapmır ünvanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Düz söz eşidilmir, verilmir qiymət,
Dolaşır dillərdə, sevilir qeybət,
Təkəbbür, nadanlıq olub müsibət,
Müftəxor işləmir, tapır dalanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Gedir aramızdan, gözəllik solur,
İçimiz pisliklə qaynayıb dolur.
Haqsızıar haqlının başını yolur,
Pula, mal-dövlətə satır imanı,
Yalanlar çoxalır, gəzir dünyanı.

Çətindir ayırmaq əyrini düzdən,
Məkirli sözləri seçilmir üzdən.
Qara pərdəsini asıbdı gözdən,
Getdikcə dəyşilir atadan qanı,
Yalan ayaq açır, gəzir dünyanı.

Hər gün bir kədərlə üzülür ürək,
Ya da kor olasan həyatda gərək,
Çirkinliyi görüb biz necə dözək?
Bazarda hərraca qoyublar canı,
Pozğunluq çoxalır ,gəzir dünyanı.

Sübhan, qartal uçar dağ zirvəsinə,
Enməyək nadanlıq səviyyəsinə!
Səs ver yaxşıların haray səsinə!
Allahım, zalıma vermə amanı!
Yalan ,ayaq açma ,gəzmə dünyanı!

## VƏTƏNDƏN UZAQLARDA

*Kaş, bərpa oluna Bakıda Tukay..*

Yaşadım qoynunda sənin bir zaman,
Yaxşılıqdan başqa görmədim yaman.
Dilin bir, dinin bir ,ey əziz qardaş!
Doğmadır tarixin ,hər qayan, hər daş.
Səni hey düşünür ,həm Azərbaycan,
Türk dilli diyarım ,can Tatarstan!

Həyat tariximdə vardır zəhmətin,
Hər bir uğurumda sənin rəhmətin,
Yazmasam şəninə əgər bir əsər,
Yediyim duz-çörək ömrümü kəsər.
"Odlar ölkəsi"ndən otuz min insan,
Yaşar torpağında ,can Tatarstan!

Dağında, düzündə ayaq izlərim,
Mavi sularında gəzir gözlərim.
Qardaş millət kimi əzizsən bizə,
Ruhunuz yaxındır ürəyimizə.
Dərdimi dərdinə bağlayan ,qatan,
İkinci Vətənim, can Tatarstan!

İlk böyük dövlətin ,o İdil-Bulqar,
Gətirdi elinə ucalıq, vüqar.
Qədim abidələr tarixin bəzər,
Volqanın suları köksündə gəzər,
Müqəddəs kitabın, Kərimi-Quran,
Tarixi muzeysən, can Tatarstan.

Kazan xanlığını ucaldan o ,xan,
O,Ulu Məhəmməd o,böyük xaqan,
Volqa sahilində bir dövlət qurdu,
Bulqar-Türk adlandı Vətəni, yurdu.
Türk-Xəzər dilinə söykənir, atan,
Gözəl bir məkansan ay ,Tatarstan.

Açdın çox millətə, xalqlara qucaq,
Qəlbləri isitdin, yandırdın ocaq.
Yeddi mərtəbəli bir "Dostluq Evi"
Oldu hər millətə həm ailəvi.
Sabantuy, Novruz-u etdin çıraqban,
Dostluq məkanısan sən ,Tatarstan!

Tukayla Nəriman dostluq simvolu,*
Küçələr verilib yanaşı, qoşa.
Mirzə Kazım bəyin cığırı, yolu,*
Alimin zəhməti getmədi boşa,
Onlara abidə ucaltdı Sübhan,*
"Afərin"-söylədi can Azərbaycan!

Çox arzu edirəm a dostlar ,bilin!
Kaş ,bərpa oluna Bakıda ,Tukay.*
Gözəl bir tədbiri olaydı, ilin,
Günəş də sevinə, gülümsəyə Ay,
Açılış günləri ola gülüstan,
Alqışlar söyləyə can Tatarstan!

***A. Tukay, N.Nərimanov.**
***Mirzə Kazım bəy-Şərqşünas alım.**
***2013-28.05.Kazanda N.Nərimanovun,**
**2015-28.05.M.Kazım bəyin abidəsini ucaltdıq.**
***Sovetlər vaxtı ,Bakıda A.Tukayın adına küçə olsa da, sonralar ləğv edildi,təəssüf ki..**

**15.09.2021.**

## Mündəricat

İMAM HÜSEYN.....................................................................5
BIRLƏŞ TÜRK DÜNYASI, GÖYLƏRƏ UCAL! ...............6
SƏN EY VƏTƏNİMİN, İGİD ƏSGƏRİ! ............................8
HAYDI HÜCUMA! ...........................................................10
DÜNYA..............................................................................12
HƏKİM ..............................................................................13
İLHAM, ƏRDOĞAN ..........................................................14
EŞQ OLSUN SİZƏ ............................................................17
ŞƏHİDLƏR ........................................................................19
ŞAİR ƏSGƏRİNƏM...........................................................20
RİYAKAR DÜNYA.............................................................22
AYAQ İZİM VAR...............................................................24
QƏHRƏMAN ŞUŞA...........................................................26
NƏ OLDU?.........................................................................28
ŞƏHİD ƏSGƏR..................................................................30
ALNIMZ LƏKƏLİ GƏZDİK BİR ZAMAN .....................31
QUZEYDƏN GÜNEYƏ BİR SƏLAMIM VAR................34
ÜRƏYİN AĞILLA SÖHBƏTİ ...........................................35
OLMAZ! ...........................................................................38
ÜRƏK QAN AĞLAYIR... .................................................40
YUMUR GÖZLƏRİNİ,SUSUR “MÜSƏLMAN” ............41
QORU TÜRKIYƏMI, EY UCA RƏBBIM .........................43

GƏL SALAM GÖNDƏRƏK AZƏRBAYCANA..............45
DƏNİZ..........................................................................46
GƏL SƏHƏR-SƏHƏR....................................................47
ATA BİLMİRƏM...........................................................48
ƏRİYİR ÖMRÜMÜZ....................................................49
TƏKƏBBÜRLÜ İNSAN...............................................51
ƏLVİDA!.......................................................................53
MƏHƏBBƏT DASTANI .............................................55
KAŞ KI, BIR QUŞ OLUB UÇA BILƏYDIM ....................56
“KAŞ KI,O GÜN OLAYDI,
O GÜN, BU GÜN OLAYDI!” .........................................57
EY HƏKİM ,ƏL SAXLA! ...............................................59
NƏ TEZ GƏLDİ ƏLLİ BEŞ YAŞ.....................................60
GƏL MASALLIYA.........................................................63
QISMƏTIN OLSUN.......................................................65
DOST İTGİSİ ................................................................67
TƏBRİZİMƏ SƏLAM APAR! ........................................69
ÜRƏYIMƏ QATIN SƏSIN!............................................71
GÖZ YAŞI ....................................................................72
MÜQƏDDƏS AD ..........................................................73
FARSDAN AVROPAYA AXIR “AĞ ÖLÜM” ...................75
AYDA GÖRÜŞƏK ..........................................................77
HEÇ DÜŞDÜMÜ ÖLÜM GÜNÜ YADINA?! ..................78
EY ŞANLI ORDUM! ......................................................79

AY DƏDƏ!..........................................................................81
HƏR ATA,HƏR ANA DEYIL MÜQƏDDƏS!..................83
BİLSƏYDİM ..................................................................84
AĞLAMA, ANA! ...........................................................85
TƏNHA EVLƏR ............................................................86
XOŞ GƏLDİN, LAÇIN!..................................................88
SƏN EY QALİB ,HƏRB BAYRAĞIM!.............................90
GÖZÜM AĞLADI...........................................................96
HƏZRƏTI SÜLEYMANIN VƏFATI................................98
VƏSF EYLƏYƏRDİM....................................................100
«HƏR ÇİÇƏKDƏN BİR LƏÇƏK» ...................................102
QORXURAM ................................................................104
VƏTƏNDƏN VƏTƏNƏ SALAM YETİRDİM...............106
KƏDƏR TARİXİMİZ OLDU, GÜLÜSTAN! ....................117
KÖRPƏLƏR KİMSƏSİZ QALMAYAYDI, KAŞ .............128
O, SON ANDA YETİŞDİ ..............................................135
YALAN AYAQ AÇIR, GƏZIR DÜNYANI.......................143
VƏTƏNDƏN UZAQLARDA .........................................145

**Qeyd:**

# SÜBHAN ABBASBƏYLİ

*"Ürəyimin harayı"*

İMZA

NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Veys Əliyev**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 24.02.2023
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru